№ 280 ISSN 1027-3875 31 dekabr 2009

KHAZAR VIEW

XƏZƏR XƏBƏR



ELMİ-KÜTLƏVİ, BƏDİİ-PUBLİSİSTİK TOPLU

www.khazar.org

ELMİ-KÜTLƏVİ,
BƏDİİ-PUBLİSİSTİK
TOPLU

1995-ci ilin
yanvarından ayda 2 dəfə çıxır

Təsisçi:
XƏZƏR UNİVERSİTƏSİ

Baş redaktor:
Hamlet İSAXANLI

Baş redaktor müavini:
Əlirza BALAYEV

Redaksiya heyəti:
Camal MUSTAFAYEV
Tofiq ABASQULIYEV
Nurəddin RZAYEV
Cəmil HƏSƏNLİ
Bəhlul ABDULLA
Nizami CƏFƏROV
Əfqan ABDULLAYEV

Rəssam:
Rafiq ƏBDÜLRƏHİMOV

Kompüter tərtibatçısı:
Yəmən HAŞIMOVA
Fotomüxbir:
Könül ƏLİYEVA
Ünvanımız:
Bakı, Məhsəti küçəsi 11,
("Neftçilər" metrosunun yanı)
Faks: 498-93-79
Telefon: 421-79-16
421-10-93

Şəhadətnamə: 255
İndeks: 67178
Sifariş: 190
Tiraj: 3000

Müəlliflərlə
redaksiyanın mövqeyi
üst-üstə düşməyə bilər
Əlyazmalar geri qaytarılmır
Xəzər Universitəsi
mətbəəsində çap edilmişdir

SCIENTIFIC-POPULAR
LITERARY-PUBLICISTIC
COLLECTION

It has been publishing twice
a month since January, 1995

Founder:
KHAZAR UNIVERSITY

Editor-in-chief:
Hamlet ISAXANLI

Associate editor:
Alirza BALAYEV

Editorial member:
Jamal MUSTAFAYEV
Tofiq ABASQULIYEV
Nurəddin RZAYEV
Jamil HASANLI
Bahlul ABDULLA
Nizami JAFAROV
Afgan ABDULLAYEV

Design by:
Rafig ABDULRAHIMOV

Computer graphics:
Yemen HASHIMOVA
Photoreporter:
Konul ALIYEVA

Address:
11 Mahsati str., Baku,
(near the "Neftchilar" metro)
Fax: 498-93-79
Phone: 421-79-16
421-10-93

Certificate: 255
Index: 67178
Order: 190
Copies: 3000

The opinions of authors
and editors
could be independent
Manuscripts are not returned
Published by
Khazar University Press

OXUYUN

Bu nömrədə



6 ƏN YAXŞI MAHNI VƏ ŞEİR MÜSABİQƏSİ

10 "ZİYARƏT"





İsaxan İSAXANLI
«ДО СВИДАНЬЯ, ДРУГ МОЙ, ДО СВИДАНЬЯ» 12

19 *АСТРОГОРОСКОП 2010*





Aydın Canıyev 25
TANRININ VƏ TARİXİN BƏXTƏVƏRİ



ЛЮБОВНЫЙ ГОРОСКОП 2010 29

USAQ DÜNYASI



34

UNİVERSİTƏ XƏBƏRLƏRİ

STRATEJİ ARAŞDIRMALAR MƏRKƏZİNDƏ "QIŞ DEBATLARI"

Dekabrın 15-də Azərbaycan Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzində "Qış debatları" keçirildi. "Biz kitab oxuyuruqmu?" mövzusuna həsr edilmiş görüşdə 100-dən çox gənc, əsasən müxtəlif ali məktəblərin tələbələri iştirak edirdilər. Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlı tədbiri açaraq çoxsaylı suallara cavab verdi və son söz söylədi.

HUMANİTAR VƏ İCTİMAİ ELMLƏRİN VƏZİYYƏTİNƏ HƏSR OLUNMUŞ VERİLİŞ

Dekabrın 15-də AzTV-də "Azərbaycanda humanitar və ictimai elmlərin vəziyyəti" mövzusunda 7 nəfər görkəmli elm adamının iştirak etdiyi veriliş oldu. Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlı da müzakirələrdə çıxış edərək, mövcud vəziyyəti dəyərləndirdi və islahatların aparılması yolları barədə fikirlərini söylədi.

TƏHSİL NAZİRLİYİNDƏ MÜŞAVİRƏ

Dekabrın 16-da Təhsil Nazirliyində təhsil naziri Misir Mərdanov və maliyyə naziri Samir Şərifovun iştirakı ilə "Beynəlxalq mühasibat uçotu standartlarına keçidlə əlaqədar maliyyə hesabatlarının tətbiqi və maarifləndirmə işinin təşkilinə dair" müşavirə keçirildi. Müşavirədə Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlı da çıxış edərək, Xəzər Universitəsində mühasibat uçotu və audit fənlərinin müasir proqramlar əsasında tədris olunduğunu vurğuladı və bu sahədə mövcud kadrların və kadr hazırlığının vəziyyətini təhlil etdi.

"BMT-nin QLOBAL SAZİŞİ VƏ KORPORATİV SOSİAL MƏSULİYYƏT PRİNSİPLƏRİ" MÖVZUSUNDA SEMİNAR-MÜŞAVİRƏ



Qlobal Saziş insan hüquqları, əmək, ətraf mühit sahəsində və korrupsiyaya qarşı mübarizə istiqamətində qlobal şəkildə qəbul edilmiş 10 prinsipə riayət etmək öhdəliyini öz üzərinə götürmüş işguzar dairələr üçün bir layihədir. Qlobal Sazişin yaradılması haqqında ilk dəfə BMT-nin sabiq Baş Katibi cənab Kofi Annan tərəfindən irəli sürülən təklif 2000-ci ilin iyun ayında BMT-nin Nyu - Yorkdakı mənzil- qərargahında rəsmi şəkildə təqdim olunmuş və ilk şirkətlər bu təşəbbüsə qoşulmuşlar. Hazırda 120 ölkədən 5600-dən çox təşkilat, o cümlədən 4300 şirkət Qlobal Sazişə üzvdür.

Dekabrın 17-də Xəzər Universitəsinin İqtisadi Siyasət və İnkişaf Mərkəzi "BMT-nin Qlobal Sazişi və korporativ sosial məsuliyyət prinsipləri" mövzusunda seminar-müşavirə keçirmişdir. Seminar-müşavirədə İqtisadi Siyasət və İnkişaf Mərkəzinin əməkdaşlıq etdiyi təşkilatlardan, Azərbaycan Xarici İşlər Nazirliyi, Birləşmiş Millətlər Təşkilatı, Avrasiya Əməkdaşlıq Fondu, BP, Statoil, İsveçrənin Azərbaycandakı Səfirliyi və Amerikanın Azərbaycandakı Səfirliyindən dəvət olunmuş nümayəndələr, eyni zamanda Xəzər Universitəsi, Azərbaycan Dillər Universiteti və Azərbaycan Diplomatiya Akademiyasının müəllim və tələbələri iştirak etmişlər.

Qeyd edək ki, 2008-ci ildən başlayaraq Azərbaycanda fəaliyyət göstərən yerli və xarici şirkətlərə Qlobal Saziş təşəbbüsünün təqdim olunması, ölkədə yerli Qlobal Sazış şəbəkəsinin

yaradılması və yerli təşkilatların Qlobal Sazişin Azərbaycana aid bölməsinə qoşulması ilə bağlı bir sıra tədbirlər keçirilmişdir.

Seminar-müşavirənin təşkil edilməsində əsas məqsəd hal-hazırda Azərbaycanın qeyri-neft sektorunda biznes strukturları tərəfindən Korporativ Sosial Məsuliyyət prinsiplərinin həyata keçirilməsi, Azərbaycanda özəl bizneslərin öz işgüzar fəaliyyətlərində insan hüquqları, əmək, ətraf mühit və korrupsiya ilə mübarizə sahələrində qlobal səviyyədə qəbul edilmiş on prinsipin tətbiqi prosesləri haqqında iştirakçıları məlumatlandırmaq və bu sahədə qarşıya çıxan problemləri müzakirə edərək, həlli yollarını göstərmək idi.


Xəzər Universitəsinin prorektoru, professor Məhəmməd Nuriyev seminar-müşavirəni açaraq, Xəzər Universitəsinin bu prinsiplər əsasında qurduğu layihələr və fəaliyyəti ilə bağlı məlumat verdi. İqtisadi Siyasət və İnkişaf Mərkəzinin direktoru Fikrət Paşayev mərkəzin fəaliyyətindən danışdı və "BMT-nin Qlobal Sazişi və Korporativ Sosial Məsuliyyət Prinsipləri" mövzusunda çıxış etdi. Müşavirəyə ekspert kimi dəvət olunan BMT-nin Proqram Məsləhətçisi Kristo Kentala, Avrasiya Əməkdaşlıq Fondunun proqram üzrə meneceri Əhəd Kazımov, BP-nin Davamlı İnkişaf Təşəbbüsü üzrə məsul şəxs Ceyhun Kərəmov, Xarici İşlər Nazirliyinin BMT və digər beynəlxalq təşkilatlar şöbəsinin ikinci katibi Rəşad Novruzov məruzə etdilər.

Dəyirmi masa arxasında təşkil olunan *Sual-Cavab* qismində ekspertlər iştirakçıların çoxsaylı suallarını cavablandıraraq, Qlobal Sazış şəbəkəsi və onun Azərbaycandakı perspektivləri barədə fikirlərini bölüşmüş, korporativ sosial məsuliyyət sahəsində maarifləndirmə fəaliyyətini davam etdirməyi, qlobal sazış prinsiplərini əhatə edən sahələrdə tərəfdaşlıq layihələrini həyata keçirməklə eyni zamanda bu layihədə iştirak edən ölkələrin təcrübəsindən faydalanmağı tövsiyə etmiş, Qlobal Sazışın Azərbaycanın beynəlxalq aləmdə müsbət imicinin formalaşmasına göstərəcəyi müsbət təsirindən danışmış və Qlobal Sazişin baş qərargahı ilə əməkdaşlıq əlaqələri qurmağın da vacibliyini xüsusi vurğulamışlar.

Sonda seminar-müşavirə iştirakçıları tədbirin keçirilməsi üçün yaratdığı şəraitə görə Xəzər Universitəsinin rəhbərliyinə, yüksək səviyyəli təşkilatçılığa görə isə İqtisadi Siyasət və İnkişaf Mərkəzinin işçilərinə minnətdarlıqlarını bildirmişlər.

Xəyalə MƏMMƏDOVA,
layihələr üzrə məsul şəxs,
İqtisadi Siyasət və İnkişaf Mərkəzi,
Xəzər Universitəsi

XEYRİYYƏ KONSERTİ



Həyatda heç də bütün uşaqlar eyni imkanlara malik olmur. Kimsə valideyn qayğısı ilə əhatə olunur, kimisi valideyn həsrəti ilə yaşayır... Kimisinin payına isti yuva, kiminsə payına isti yuva həsrəti düşür. Ancaq kimliyindən asılı olmayaraq böyüklərin hamısı ehtiyacı olanlara əllərindən gələn qədər yardım etməyə borcludurlar. Hər kəs bu borcu özü ödəməklə yanaşı, öz övladına da dərk etdirməli, ona da xeyir verməyin, xeyriyyəçiliyin insanlara gətirdiyi ikiqat sevinci yaşamağı və yaşatmağı öyrətməlidir.

Dekabrın 17-də Xəzər Universitəsinin "Dünya" konsert salonunda bu cür tərbiyə almış bir qrup gəncin səyi və zəhməti ilə "Uşaq ili və Həmrəylik günü" münasibətilə xeyriyyə konserti keçirildi.

Konserti Bakı Musiqi Akademiyasının Tələbə Gənclər Təşkilatı və Xəzər Universitəsinin Tələbə Məclisi təşkil etmişdi. Konsertdən yığılan vəsait 3 saylı uşaq evinə sərf olunacaq.

Xeyriyyə konsertinin yüksək səviyyədə keçməsinə köməklik göstərdiklərinə görə Xəzər Universitəsinin işçisi Nanə Kələntərliyə, Bakı Musiqi Akademiyasının Tələbə Gənclər Təşkilatının sədri Fidan Hüseynovaya və sədr müavini Vüqar Hümbətova, həmçinin Xəzər Universitəsinin Tələbə Məclisinin sədri Pərviz Muradova və sədr müavini Cavid Əliyevə təşəkkürümüzü bildiririk.

Ülkər QARACALI,
Tələbə,
İqtisadiyyat və menecment fakültəsi,
Xəzər Universitəsi

"MİLLİ TEMPUS İNFORMASİYA GÜNÜ"


Dekabrın 18-də Bakı Dövlət Universitetində (BDU) "Milli Tempus İnformasiya Günü" keçirildi. Milli Tempus Ofisinin və BDU-nun təşkilatçılığı ilə keçirilən bu görüşdə Xəzər Universitəsinin beynəlxalq proqramları haqqında da danışıldı. Görüşdə Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlı və universitənin əməkdaşları da iştirak etdilər.

AZƏRBAYCANIN QLOBAL VƏZİYYƏTİNİN MÜZAKİRƏSİ

Dekabrın 18-də Azərbaycan Diplomatiya Akademiyasında "Firday Hearings" seriyasında xarici işlər nazirinin müavini Araz Əzimovun "Azerbaijan in Global Picture: İmmediate Assessment of outgoing 2009" mövzusunda mühazirəsi oldu. Elm adamlarının və diplomatların qatıldığı bu görüşdə Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlı da müzakirələrdə iştirak etdi.

ƏN YAXŞI MAHNI VƏ ŞEİR MÜSABİQƏSİ

Dekabrın 21-də Xəzər Universitəsində İngilis dili və ədəbiyyatı, İctimaiyyət və iş dünyası ilə əlaqələr departamentlərinin təşkilatçılığı ilə ingilis dilində ən yaxşı şeir və mahnı müsabiqəsinin final mərhələsi keçirildi. Tədbirdə Xəzər Universitəsinin müəllim və tələbələri iştirak edirdilər.



Səməd Məmmədzadə

Müsabiqənin münsiflər heyətinin tərkibinə Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlı, İngilis dili və ədəbiyyatı departamentinin müdiri Eldar Şahgəldiyev, İctimaiyyət və iş dünyası ilə əlaqələr üzrə koordinator Əlövsət Əmirbəyli, Siyasi elmlər və beynəlxalq münasibətlər departamentinin müdiri Baba Bayramlı, Media resursları mərkəzinin müdiri Natella Barkaya, dram müəllimi Əhəd Hacıyev, dünya ədəbiyyatı (World literature) müəllimi Jan Peart daxil idilər.

Tədbirdə tələbələr 12 mahnı və 14 şeir ifa etdilər. Münsiflər heyəti 5 ballıq sistemlə müsabiqənin final iştirakçılarını qiymətləndirdi. İfalar bitdikdən sonra münsiflər heyəti qalibləri müəyyənləşdirdi. İqtisadiyyat və menecment fakültəsinin I kurs tələbəsi Səməd Məmmədzadə birinci yerə, Humanitar və sosial elmlər fakültəsinin II kurs tələbəsi Pınar Ələkbərova və Memarlıq, mühəndislik və tətbiqi





Pınar Ələkbərova



Natiq İsmayılov



Nigar Axundova

elmlər fakültəsinin III kurs tələbəsi Natiq İsmayılov ikinci yerə, Humanitar və sosial elmlər fakültəsinin I kurs tələbəsi Nigar Axundova və həmin fakültənin II kurs tələbəsi Vahid Hüseynov üçüncü yerə layiq görüldülər.

Qaliblərə mükafatlar təqdim olundu. Sonda Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlı İngilis dili və ədəbiyyatı, İctimaiyyət və iş dünyası ilə əlaqələr departamentlərinə, müəllimlərə, tələbələrə belə bir müsabiqə təşkil etdikləri üçün öz minnətdarlığını bildirdi.

Eldanə CAMALOVA,
tələbə,
Təhsil fakültəsi,
Xəzər Universitəsi



Vahid Hüseynov

"DÜNYA ƏDƏBİYYATI KİTABXANASI": YENİ NƏŞRLƏRİN TƏQDİMATI

Dekabrın 22-də Xəzər Universitəsinin sərgi salonunda Kitab klubunun təşkilatçılığı ilə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə nəşr edilən 150 cildlik "Dünya ədəbiyyatı kitabxanası" seriyasından yeni nəşr olunmuş altı kitabın təqdimat mərasimi keçirildi. Mərasimdə Kitab klubunun işçiləri, çoxcildliyin nəşrini həyata keçirən "Şərq-Qərb" nəşriyyatının əməkdaşları, Xəzər Universitəsinin Kitabxana və İnformasiya Mərkəzinin işçiləri, müəllim və tələbələri iştirak edirdilər.

Mərasimi giriş sözü ilə Kitab klubunun direktoru Elxan Rzayev açdı. O, seriyanın hər bir azərbaycanlı üçün, xüsusən tələbələr üçün əhəmiyyətli olduğunu, dünyanın ən məşhur klassiklərinin əsərlərinin buraya daxil edildiyini bildirdi. Məlumat verdi ki, çoxcildliyin tirajı məhdud olaraq 1000 nüsxədən ibarətdir və yalnız abunə yolu ilə satılır. Maraqlananları Kitab klubuna dəvət etdi.

Layihənin tərcümə və redaktə işinin rəhbəri Asif Hacı, korrektura və texniki redaktorluq işinin rəhbəri Rövşən Ağayev, dizayneri Tərlan Qorçu çıxış



edərək, Azərbaycanın kitab nəşri tarixində ikinci dəfə bu həcmdə, bu miqyasda həyata keçirilən layihənin xüsusiyyətlərin haqqında məlumat verdilər.

Mərasimdə Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlı çıxış edərək, kitabın və mütaliənin əhəmiyyətindən danışdı, onun böyük qüvvə olduğunu bildirdi, dünya ədəbiyyatını öyrənməyin vacibliyini qeyd etdi.

NESS TEXNOLOGİYALAR ŞİRKƏTİNİN AZƏRBAYCANDAKI BAŞ DİREKTORU İLƏ GÖRÜŞ

Dekabrın 25-də Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlı bir sıra ölkələrdə (İtaliya, İspaniya, Portuqaliya, İsrail və s.) kompüter texnologiyaları və onların tətbiqi sahəsində geniş fəaliyyət göstərən Ness Texnologiyalar Şirkətinin Azərbaycandakı baş direktoru Mixael Mogilevskini qəbul etdi.

Görüşdə universitənin 1-ci prorektoru professor Məhəmməd Nuriyev də iştirak edirdi. İnformasiya texnologiyalarının tədrisi məsələsində birgə fəaliyyət imkanları müzakirə olundu, gələcəkdə daha geniş əlaqələr qurulması barədə fikir mübadiləsi aparıldı.

"ENVIRONMENTAL SECURITY AND RESOURCE MANAGEMENT IN THE CASPIAN REGION".

The faculty member of the Khazar University Rovshan Abbasov received the Course Development Competition grant from the Curriculum Resource Center of the Central European University, Hungary. The Course Development Competition is intended to encourage faculty from Eastern Europe, Southeastern Europe, the former Soviet Union and Mongolia to develop and introduce new university courses at their institutions. The mission of the program is to contribute to the development of higher education in the regions mentioned above by increasing academics' capacity to introduce innovative, regionally relevant courses, modern teaching approaches and new academic areas in the curricula of their home universities.

According to this project, Rovshan Abbasov (Khazar University, Azerbaijan) and Shamshagul Mahsayeva (Central European University, Kazakhstan) will jointly develop a course named "Environmental Security and Management in the Caspian region".

This course has a integrative character and contains ecological, environmental, economical and political knowledge. For the first time, authors of the project look at the Caspian region and an entire educational area. The proposed course can be considered as the first effort of participating universities, to deliver a regional course. The course will be delivered taken into consideration only regional interests of Caspian countries, since regional or global approach is the best way to solve environmental problems and protect environmental security. Therefore, authors suggest that this course will be a successful addition to the departments' curricula of both universities.

The proposed project for the first time is looking at the Caspian region as an entire educational area and has an aim to create a new win-win strategy for future generations of the Caspian region. From this point of view, authors of the project comes into mind that high level of the public awareness in the society and good education are the only ways for solving problems related to environment, peace, poverty and security.

The course will be delivered in the fall semester of 2010 simultaneously at the Khazar University and the Eurasian National University, Kazakhstan. Students from both universities will be free to create groups and find project partners from the partner university. For example, Azerbaijani student will be able to find project partner from Kazakhstan and vise versa. Through the semester, these students will have a joint work on the project and presentation will be delivered jointly using internet technology. It will be a first course, when students from various universities make joint project presentation using internet and it can be considered as the main novelty of this course. Joint class projects through internet can also be considered as the novelty and will serve as a good experience for future activities.

Authors of this project suggest that prevention of the future uncertainties around this lake will strongly depend on regional consciousness of people living around this lake. Only regional consciousness can create regional interests in people, preventing future disputes that might happen among Caspian nations. For example, construction of new pipelines makes Caspian countries necessarily to join efforts to defend their national and environmental security and this is called as a regional security. In addition, protection of the environment of the Caspian Sea cannot be done separately and it requires high collaboration of the Caspian nations.

Given the importance associated with the future importance of the Caspian Sea, comprehensive curricula will provide a means for limiting lack of knowledge on students living in this region. This will also make enable appraise significance of the region correctly and use resources of the Caspian Sea more effectively. So, students of participating countries will be able to realize that the future of the region is closely connected with the independency, democracy, cooperation and friendship. Apart from that, the proposed project will contribute to future collaboration of teachers and educational officers of participating countries. Moreover, the new developed curricula and course reader, will serve as the additional educational mean and can be used over long times. It is quite possible that in the future this course reader will be published as a book.

TƏHSİL

Azərbaycan Turizm İnstitutunda

"TURİZM VƏ REKREASİYA: PROBLEMLƏR VƏ PERSPEKTİVLƏR" MÖVZUSUNDA III RESPUBLİKA ELMİ-PRAKTİKİ KONFRANSI

Dekabrın 19-da Azərbaycan Turizm İnstitutunda (ATİ) Mədəniyyət və Turizm Nazirliyi və ATİ-nin birgə təşkilatçılığı ilə "Turizm və rekreasiya: problemlər və perspektivlər" mövzusunda III Respublika elmi-praktiki konfransı keçirilmişdir.

Tədbirdə müxtəlif ali təhsil müəssisələrinin, turizm agentlikləri və mehmanxanaların nümayəndələri, turizm sahəsində tədqiqatla məşğul olan mütəxəssislər iştirak etmişlər.

Konfransı giriş sözü ilə açan Azərbaycan Turizm İnstitutunun rektoru Cəfər Cəfərov qonaqları salamlayaraq, ATİ-də konfrans keçirilməsi ənənəsindən, belə konfransların ölkə turizmi üçün əhəmiyyətindən danışdı. Qeyd etdi ki, turizm sənayesi ölkəmizdə inkişaf etməkdə olan sahədir. Bu sahədə ixtisaslı kadrların yetişdirilməsi üçün əlimizdən gələni edirik. Rektor dünyanın bir sıra nüfuzlu ali təhsil ocaqları ilə əməkdaşlıq nəticəsində ATİ-də təhsilin səviyyəsinin xeyli yüksəldiyini xüsusi vurğulamışdır.

Mədəniyyət və turizm naziri Əbülfəs Qarayev "Azərbaycan turizminin müasir durumu və perspektivləri" mövzusunda nitqində konfransın əhəmiyyətindən danışaraq qeyd etdi ki, "müzakirə edilən mövzular turizmin bütün sahələrini əhatə edir. Konfrans Azərbaycanda turizmin inkişafına öz töhfəsini verəcəkdir.

Bu il ATİ-nin ilk buraxılışı olacaqdır. Məzunlar ölkəmizdə turizm obyektlərində işlə təmin ediləcəklər.

Azərbaycan turizmi sürətlə inkişaf etməkdədir. Son illər ərzində turizm infrastrukturu yaradılması sahəsində həm respublikanın paytaxtı Bakı şəhərində, həm də regionlarda böyük işlər görülür. Respublikamızda müxtəlif turizm tədbirləri keçirilir, turizm şirkətlərinin sayı çoxalır, yerləşmə vasitələrinin sayı günü - gündən artır, turizmə aid müxtəlif reklam materialları buraxılır. "Turizm və rekreasiya zonaları", "Azərbaycan kurortları" haqqında ölkə Prezidentinin fərmanlarının və Dövlət proqramlarının qəbul edilməsi olduqca təqdirəlayiqdir.

Son illərdə ölkə Prezidentinin sərəncamı ilə yaradılmış 8 milli park ekoturizmin inkişafına təkan vermişdir. Bundan əlavə, ölkəmizdə mədəni, ekoloji, ekstremal, idman turizmi üçün əlverişli şərait vardır. Məsələn, idman turizmi (alpinizm) üçün dağlar, səyahətlər keçirmək üçün keçidlər mövcuddur. Lakin, onları genişləndirmək, eləcə də başqa turizm növlərinin inkişafı üçün səyləri artırmaq lazımdır.

Bu il ölkə Prezidenti İlham Əliyev cənablarının iştirakı ilə "Şahdağ" qış-yay turizm idman kompleksinin bünövrəsi qoyulmuşdur. Burada 5 min iş yerinin açılması gözlənilir. Əsas məsələ qısa bir zamanda orada işləyəcək kadrların hazırlanmasıdır. Bu işdə ATİ ilə yanaşı digər ali məktəblərin də köməyinə böyük ehtiyacımız vardır"


Plenar iclasdan sonra konfrans öz işini üç bölmədə - "Turizm və rekreasiya ehtiyatlarının tədqiqinin nəzəri və praktiki əhəmiyyəti", "Turizm bazarı: müasir durum, təhlükəsizlik, inkişaf perspektivləri", "Ekoturizm və onun inkişaf problemləri" bölmələrində davam etdirdi.

Azərbaycan Turizm İnstitutunun kafedra müdiri, dosent Bahadur Bilalov "Heydər Əliyev və müstəqillik illərində turizm sahəsində beynəlxalq əməkdaşlığın genişlənməsi", Azərbaycan Turizm İnstitutunun dosenti Məhərrəm Zülfüqarlı "Azərbaycanda turizmin inkışafının tarixi mərhələləri", Bakı Dövlət Universitetinin professoru Nadir Məmmədov "Masallı inzibati rayonunun turizm-rekreasiya ehtiyatları" mövzularında məruzə etdilər. Bölmə iclaslarında digər məruzələr də dinlənildi.

Yekun Plenar iclasda bölmə sədrlərinin hesabatı dinlənildi, ölkədə turizmin inkişafının sürətləndirilməsi üçün təxirəsalınmaz tədbirlər haqqında Nazirlər Kabinetinə təkliflər səsləndirildi, iştirakçılara sertifikatlar təqdim edildi.

UNİVERSİTƏMİZİN YENİ NƏŞRLƏRİ


"ZİYARƏT"



Şair Hamlet İsaxanlının "Ziyarət" adlı yeni poeziya kitabı çapdan çıxmışdır. Bu, riyaziyyatçı alimin, dil və ədəbiyyat, tərcümə nəzəriyyəsi və tarixi, poeziya və fəlsəfə, elm, mədəniyyət və təhsil tarixi üzrə çoxsaylı məqalə, monoqrafiya və dərsliklərin müəllifi olan şair və yazıçının, publisist və tərcüməçinin sayca 10-cu poeziya kitabıdır. Indiyədək Azərbaycanda ("Təzadlar", 2001; "Bu da bir həyatdı", 2004; "Dördlüklər", 2007); Rusiyada ("Контрасты", Изографъ, 2006); Iranda ("شعره دۆنـن دويغـولار", Təbriz, 2004; "تضادلار". Təbriz, 2005; "بودا بير حياتدى". Təbriz, 2005); Gürcüstanda ("სიცოცხლის პოეზია", Intellect, 2004); və Çində (哈纳希特诗选/阿塞拜疆诗人伊萨汗里著, 陈子慕译.—北京:中央编译出版社 2009) şeir kitabları nəşr olunmuşdur.

Kitaba heca, hecalı sərbəst və ya ritmik sərbəst, həmçinin digər vəznlərdə yazılmış, qəmli və sevinc dolu, fəlsəfi və sadəcə xoş əhval yaradan müxtəlif şeirlər daxildir. Kitabdakı epik-lirik "Ziyarət" poeması şairin öz uşaqlığına, doğulduğu kəndə səyahəti ilə, yaxın və uzaq keçmiş haqqında xatirələri ilə bağlıdır.

Kitabdan iki şeiri və "Ziyarət" poemasından bir parçanı oxuculara təqdim edirik.



Əl-Ələ

Ömür var, mənası - ye, iç, yat,
Nə dərin həyəcan, nə fəryad.
Sevdasız bir həyat – nə həyat?!

Sizə bir söz deyim, nəhayət :
Tutuşaq, a dostlar, əl-ələ
Keçməsək arzudan əmələ
Böyük bir təhlükə, qorxu var –
Məhv olar, puç olar arzular
Könüllər coşub nəğmə deməz
Dünya biz deyənə bənzəməz.

Solist

Uşaqlıqdan düşünmək olubdu peşəm,
Kitablardan toz yemişəm
və... xəyallara dalmışam –
Yolum haraya düşəcək,
Kim-kim ilə görüşəcək –
Onu mən özüm demişəm.
Nyutonla söhbət edib,
Nizamidən dərs almışam.
Dostum olub neçə ədib
Şekspirdən Tolstoya.
Mövlanəni bir kəs duyan
"Məsnəvi"dən çətin doya –
O nəşədən mən də məstəm.
Amma, vallah, mən nə başa ağıl qoyan,
Nə rəhbər, nə moralistəm.
Binadan nə Tolstoyçu, nə Marksist,
Nə sosyalist, nə başqa "ist",
Nə Mustafa Kemalistəm.
Zaman-zaman onlara mehman olsam da,
Təklikdən də zövq almışam.
Söhbət edib, dərs alsam da,
Mən öz havamı çalmışam.
Məni xorda oxutsalar
Səsim, sözüm, öz nəğməm var -
Dadı-duzu olsa da kəm,
Yenə nə qəm?!
Mən solistəm ki, solistəm!

Könül səsi

("Ziyarət" poemasından)

Biri deyir: "kimə gərək
Rəhm, şəfqət, açıq ürək?
Sentimental bu ax-uflar
Son vaxt yaman çoxalıblar,
Bu şairlər, filosoflar
Xalqın evini yıxıblar –
Qara qələm, ağ kağızdı
Ağız dedi, əl də yazdı,
Cilovsuz qalıb coşublar
Nə qədər boş söz qoşublar...

Qaydasız oyundur həyat
Yaxşı oyna, arzuna çat.
İndi də belə zamandır -
Bacarana baş qurbandır.

Dövlətdən şikayət etmə,
Xoşun gəlmir – yaxın getmə.
Kim ki, dövlət işindədir
Şərqdə, Qərbdə, ya Çindədir,
Hansı irqdə, ya dindədir
Fərqi yoxdur, qarnı toxdur –
O, səltənət içindədir"

İnsan var ki, könül səsi
Sevgi deyil, siyasətdir.
Ehtirası, fəlsəfəsi
Əmr, hökm, rəyasətdir.

Yalan deyib haqqı danmaq,
Haqqı danıb ad qazanmaq
Acizlik, ya fərasətdir?
(Suallar içində yanmaq
İnsanlarda bir adətdir).

Günaha batmışıq biz də –
Elə bizim sayəmizdə
Çoxu "dahi", "bir dənədir"...
Demə ki, bu - zəmanədir
Demə dünya dəyişmişdir.
Nədən adət olub bizdə
Əyilir əyri də, düz də?
Aman tale, bu nə işdir,
Cavab tapmaq çətin işdir...
Məxluqat nə etməlidir?
Min şükür ki, hər yaranan
Bir gün ölüb getməlidir...

Nə yaxşı ki, kainata
Tor qurub, kəmənd atmadıq.
Nə yaxşı ki, yeri, göyü
Biz qurub, biz yaratmadıq.

Qaçmışam mənsəb
cəngindən,
Mən də başqa cür dəliyəm.
Tutmuşam söz ahəngindən
Düzə doğru deməliyəm.

Yorularmış insan bəzən
Süni, yapma təbiətdən...
Təmiz ələ, xoş əmələ,
Saf insana vuruldum mən,
Uzaq durdum bədheybətdən.

Nə əmr istər, nə də fərman,
Əsər külək canü-dildən,
Xəbər verər hər mənzildən.
Zəhmi ağır dik qayalar-
Durna keçər qanad salar.
Möcüzədir vəhşi orman,
Ot üstə şeh, dağda duman,
Günəş gülər, bulud ağlar,
Yerdə, göydə min sevda var.

Ay, yer, günəş, insan – nə var
Seçər hərə öz babını.
Seçib başına dolanar,
Çalar eşqin rübabını.

Fikir azad, yollar açıq,
Gəl, aləmin seyrinə çıx.
Qarşımızda sirli sandıq
Onu açmaq istəməsək,
Bəs onda niyə yarandıq?!

"AZƏRBAYCAN SEVGİ POEZİYASI"



Xəzər Universitəsi nəşriyyatında çoxcildli nəşr kimi nəzərdə tutulan "Azərbaycan sevgi poeziyası" antologiyasının ikinci və üçüncü kitabları çapdan çıxmışdır. Ötən ilki nömrələrimizin birində antologiyanın birinci kitabını təqdim edərkən qeyd etdiyimiz kimi, "Azərbaycanın kitab nəşri tarixində bənzəri olmayan" bu layihənin müəllifi və tərtibçisi Xəzər Universitəsinin rektoru, şair və ədəbiyyatşünas Hamlet İsaxanlıdır. Kitabların nəfis dizayn işi də ona məxsusdur.

Antologiyanın **ikinci kitabına** Abbas Səhhət, Səməd Mənsur, Abdulla Şaiq, Məhəmməd Hüseyn Şəhriyar, Əhməd Cəmil, Həmid Nutqi, Ənvər Əlibəyli, Zeynal Cabbarzadə, İslam Səfərli, Hüseyn Arif, Nəbi Xəzri, Bəxtiyar Vahabzadə, Əliağa Kürçaylı, Əli Kərim, Nəriman Həsənzadə, Xəlil Rza Ulutürk və Cabir Novruzun, **üçüncü kitabına** Məmməd Araz, Tofiq Bayram, Famil Mehdi, Fikrət Qoca, Musa Yaqub, Vaqif Səmədoğlu, Nüsrət Kəsəmənli, Ramiz Rövşən, Hamlet İsaxanlı və Zəlimxan Yaqubun sevgi şeirləri daxil edilmişdir.



TƏDQİQAT

İsaxan İSAXANLI



«ДО СВИДАНЬЯ, ДРУГ МОЙ, ДО СВИДАНЬЯ»

Düz 84 il bundan əvvəl, 1925-ci il dekabrın 27- dən 28 - nə keçən gecə, Nazim Hikmətin sözləri ilə desək, "dünyanın ən yaxşı və ən səmimi şairlərindən biri"ni itirdik. Ayazlı-şaxtalı bir qış gecəsində «До свиданья, друг мой, до свиданья» şeiri ilə vida etdi Yesenin gözəlliklərini bənzərsiz bir ilhamla vəsf etdiyi bu dünyaya.

«До свиданья, друг мой, до свиданья». Bu şeir Yeseninin qələmindən çıxan son poetik şedevrdir. Şeirin yazılma tarixçəsi belədir: 1925-ci il dekabrın 23-də Yesenin gecə qatarı ilə Moskvadan Leninqrada gedir və "Anqleter" otelində yerləşir. Burada o, vaxtını əsasən Leninqrad dostlarının (V.İ.Erlix, Q.F.Ustinov, E.A.Ustinova, N.Klyuyev və s.) əhatəsində keçirir. E.A.Ustinova xatırlayır: "27-sində *(dekabr ayının 27-də - İ.İsaxanlı)* onun yanına getdim. O mənə sol əlini göstərdi. Biləyində 3 dərin olmayan kəsik vardı. Serqey Aleksandroviç şikayət etdi ki, bu yaramaz oteldə mürəkkəb də yoxdur və mən bu gün səhər qanla yazmalı oldum. Tezliklə şair Erlix gəldi. Serqey Aleksandroviç stola yaxınlaşdı, səhər qanla yazdığı şeiri bloknotdan cırdı və Erlixin pencəyinin iç cibinə qoydu. Erlix əlini cibinə salmaq istədi, amma Yesenin onu dayandırdı. "Sonra oxuyarsan, lazım deyil". (1)

Həmin mənzərəni V.İ.Erlix belə təsvir edir. "Yazı stolunun yanında dururuq. Yesenin, Ustinova və mən... O dedi: Həə, Liza xala, bir qulaq as, bu biabırçılıqdır. Belə də şey olar ki, oteldə mürəkkəb olmasın. Başa düşürsən? Şeir yazmaq istəyirəm, mürəkkəb yoxdur. Axtardım, axtardım, elə də tapa bilmədim. Bax gör neynəmişəm. O, köynəyinin qolunu yuxarı çəkdi və əlini göstərdi: kəsik. Hay-küy qalxdı. Ustinova əməlli-başlı hirsləndi.

- Serqunka! Sənə son dəfə deyirəm. Bir də belə zarafatı təkrar etsən, artiq biz tanış deyilik.

- Liza xala, mən də sənə deyirəm, əgər mənim mürəkkəbim olmasa, mən yenə əlimi kəsəcəm. Mən mühasib deyiləm ki, işi sabaha saxlayım... Yesenin stola sarı əyilir, bloknotdan bir vərəq cırır və uzaqdan göstərir: Şeirdir. Kağızı 4 yerə bükür və mənim pencəyimin cibinə qoyur: Sənə. Ustinova oxumaq istəyir.

- Yox, gözlə, tək qalar, oxuyar." (2)

Beləliklə, Yesenin gözünü dünyaya əbədi yumduğu gün səhər bu şeiri öz qanı ilə yazır. Şeir Yeseninin ölümünün sabahısı günü, dekabrın 29-da, Leninqraddda çıxan "Krasnaya qazeta"nın axşam buraxılışında (№ 314) dərc edilmişdi. Şeirin orijinal əlyazması hazırda Moskvada A.S.Puşkin adına Rus Ədəbiyyatı İnstitutunun arxivində saxlanılır. Bəzi araşdırıcılar bu şeirin qanla yazılması faktını şübhə altına alsalar da, ümumiyyətlə Yeseninin qanla yazmaq kimi bir adətinin olduğunu qəbul etmək məcburiyyətindəyik. N.A.Tabidzenin xatirələrinə nəzər salaq: "Yeseninin "Strana sovetskaya" kitabı çıxanda *(bu kitab 1925-ci ildə Tiflisdə çıxmışdır – İ.İsaxanlı)* o, kitabın üzərində öz qanı ilə "məni və mavi buynuzları sev" sözlərini yazaraq, kitabı mənə hədiyyə etdi. Təəssüf ki, bu kitabı məndən oğurladılar." (3)

Görünür, şeirin qanla yazılmasını qəbul etmək istəməyənlər N.A.Tabidzenin xatirələrindəki bu məqamı diqqətdən qaçırmışlar. Digər tərəfdən, bu şeirin məhz Yesenin tərəfindən və məhz qanla yazılması faktı ekspertiza tərəfindən sübuta yetirilmişdir. (4)

Ümumiyyətlə, bu şeir müxtəlif vaxtlarda müxtəlif fikirlərin yaranmasına səbəb olub. Bəzi iddialara görə, bu şeirin müəllifi Yesenin deyil və şeirdə Yeseninin xətti saxtalaşdırılmışdır. Digər bir müəllifə görə, şeirin qanla yazılması uydurmadır, başqa bir müəllifə görə, şeir V.İ.Erlixə deyil, N.Klyuyevə həsr edilib. Şeirin Yeseninin sevdiyi qadınlardan birinə həsr edilməsi kimi fikirlər də var. Bu fikirlər indi də səngimək bilmir. Son illərin yeni və ən maraqlı versiyalarından biri Moskva Dövlət Mədəniyyət və İncəsənət Uni-

versitetinin professoru, pedaqoji elmlər doktoru Tatyana Karatıqinanın irəli sürdüyü versiyadır. Professor Karatıqinanın fikrinə görə, bu şeir nə V.İ. Erlixə, nə də Yeseninin sevdiyi hər-hansı bir qadına deyil, Yeseninin bakılı dostu P.İ.Çaqinə həsr edilib. Professor Karatıqina yazır: "...Belə fikir yürütmək olar ki, Yesenin həyatının son saatlarında özünün «До свиданья, друг мой, до свиданья» şeirində də məhz bakılı dostuna *(P.İ. Çaqin – İ. İsaxanlı)* müraciət etmişdir. Ona *(Yeseninə – İ.İsaxanlı)* Anqleter otelində baş çəkən və indi ədəbiyyatşünaslar tərəfindən onun ölümündə vasitəçilər kimi qəbul edilən digər şəxslərlə bərabər, Erlix də onun yaxın dostları sırasına daxil deyildi. Qadınlara isə Yesenin öz əsərlərində çox nadir hallarda "dost" sözü ilə müraciət etmişdir. O onlara, əsasən, "əzizim" və "sevgilim" deyə, ya da öz adları ilə müraciət edirdi". (5) Daha sonra müəllif Yeseninin «Прощай Баку» şeirinin birinci bəndini və «До свиданья, друг мой, до свиданья» şeirinin birinci bəndini bir şeir çəklində verərək, onlar arasında mənəvi və ruhən bağlılığın, eyni zamanda ciddi üslüb yaxınlığının olduğunu qeyd edir:

Прощай, Баку! Тебя я не увижу.
Теперь в душе печаль, теперь в душе испуг.
И сердце под рукой теперь больней и ближе,
И чувствую сильней простое слово: друг.

До свиданья, друг мой, до свиданья.
Милый мой, ты у меня в груди.
Предназначенное расставанье
Обещает встречу впереди.

Əlbəttə, maraqlı və cəzbedici versiyadır. Lakin hansı versiyanın doğru, hansının səhv olduğunu isbat etmək tarixin və Yesenin irsinin araşdırıcılarının öhdəsinə düşür.

«До свиданья, друг мой, до свиданья» şeiri orijinalda belədir:

До свиданья, друг мой, до свиданья.
Милый мой, ты у меня в груди.
Предназначенное расставанье
Обещает встречу впереди.

До свиданья, друг мой, без руки, без слова,
Не грусти и не печаль бровей, —
В этой жизни умирать не ново,
Но и жить, конечно, не новей. (6)

«До свиданья, друг мой, до свиданья» şeiri Yeseninin Azərbaycan dilinə ən çox tərcümə edilən şeiridir. Şeir 9 müəllif – Ş.Sadiq (1959), Əliağa Kürçaylı (1975), Anar (1973), Nüsrət Kəsəmənli (1974), Mahir Qarayev (1994), Knyaz Aslan (2005), Firuz Mustafa (2005), Eldar Nəsibli Sibirel (2006), Eyvaz Borçalı (2006) tərəfindən tərcümə edilmişdir.

"Öz doğma dilində orijinalın ruhuna, ahənginə uyğun gələn poetik ifadə tərzini tapmaq" (7), başqa sözlə, orijinala mümkün qədər yaxın olmaqla orijinaldakı şeiriyyəti saxlamaq bacarığı tərcümədə ən mühüm faktorlardandır.

Əslində, "orijinala daha yaxın tərcümələr daha yaxşı səslənir və əksinə, səslənmə ürəyəyatımlıdırsa, bu, orijinala yaxınlıqdan irəli gəlir" fikri cəzbedici görünür. Lakin paradoksal olsa da, bəzən orijinala çox yaxınlıq istəyi şeiriyyətdən uzaqlaşdırır. Bu, sözsüz ki, arzu edilməyən haldır və tərcüməçinin orijinaldakı ruhu, şeiriyyəti tuta bilməməsindən və bütün bunları quru söz oyununa qurban verməsindən irəli gəlir. Digər bir faktor da unudulmamalıdır: tərcüməçinin şeirin orijinal dilini yaxşı bilməməsi və ya tərcümə vaxtı orijinala səthi münasibət. Yesenindən tərcümələrdə bu hala xeyli rast gəlinir. Əlbəttə, rus dilini yaxşı bilməyən birinin həmin dildən tərcümə etməyə girişməsi fikri real görünməsə də, orijinala səthi münasibət faktları açıq-aydındır. Bəzən müəlliflər bir sözü əsas kimi götürərək onun başına fırlanır, hər hansı bir mənanı ifadə edir, lakin həmin məna orijinaldakından tamamilə fərqli olur, orijinalın ümumi məzmununa və ruhına uyğun gəlmir. Yesenindən tərcümələrdə belə hallar kifayət qədərdir. Bunları aradan qaldırmaq üçün tərcümə zamanı orijinalın ruhuna sadiqlik və orijinaldakı mənaya həssaslıq göstərilməsi vacibdir.

İlk dəfə bu şeirin tərcümələrinin təhlilinə Rafiq Novruzov cəhd göstərmişdir. (8) Lakin tədqiqatçı təhlilə çox ötəri toxunmuş, hətta, adını çəksə də, Ş.Sadiqin tərcüməsi haqqında bir kəlmə belə söyləmədən ümumi nəticə çıxarmışdır. Bundan sonra Əmirxan Xəlilov bu şeirin tərcümələrini təhlil etmişdir.(9) Əslində isə, bunu ciddi təhlil də adlandırmaq olmaz, çünki tədqiqatçı həmin dövrdə məlum olan dörd tərcümədən yalnız ikisini (Ş.Sadiq və Əliağa Kürçaylının tərcümələri) təhlilə cəlb etməklə kifayətlənmiş, Anar və Nüsrət Kəsəmənlinin tərcümələrinin (10-11) isə adı belə çəkilməmişdir. Tərcümələrin nisbətən geniş təhlilini isə Pərvanə Məmmədova (12) vermişdir. Lakin bu təhlildə də toxunulmamış və eləcə də, fikrimizcə, yanlış məqamlar var ki, biz həmin məqamlara xüsusi diqqət yetirəcəyik. Yeri gəldikcə, yuxarıda adı çəkilən tədqiqatçıların təhlili ilə əlaqədar fikrimizi də söyləyəcəyik. Qeyd edək ki, Pərvanə Məmmədova şeirin həmin dövrə məlum olan 5 tərcümə variantından 4-nü təhlil

etsə də, Mahir Qarayevin tərcüməsi (13) unudulmuşdur.

Şeir cəmi iki bənddir və şeirin əsas məqamları hər bəndin son beytləridir. Şübhəsiz ki, bu məqamları daha yaxşı verən tərcümələr daha uğurlu hesab edilməyə namizəddirlər. Digər tərəfdən isə, hər şeyi iki beytin yedəyinə bağlamaq da doğru olmaz. Odur ki, bütün tərcümə boyu orijinala yaxın olmaqla poetik səslənməyə nail olmaq və son beytlərdəki fikri daha dəqiq və şairanə ifadə etmək bacarığı bu şeirin tərcüməsində uğurun açarıdır.

Ş. Sadiqin tərcüməsi

Əlvida, ey dostum, bir də əlvida,
Səni gəzdirərəm ürəyimdə mən.
İnan qarşıdakı bu ayrılıq da
Görüş vəd eləyir bizə yenidən.

Əlvida, nə danış, nə də ki əl ver,
Nə qaşlarını çat, nə gözün dolsun.
Ölüm bu dunyada yenilikmidir...
Yaşamaq özü də yenilik olsun? (14)

Əvvəla onu qeyd edək ki, «До свиданья» ifadəsinin tərcüməsi kimi "salamat qal" ifadəsi daha doğru, daha cəzbedici, daha ürəyəyatımlı və poetik səslənsə də, adı çəkilən şeirin ruhən və faktik olaraq müəllifin həyata vida nəğməsi olması tərcümələrin hamısında (Knyaz Aslanın tərcüməsindən başqa) «До свиданья» ifadəsinin təbii görünən "salamat qal" kimi deyil, "əlvida" kimi verilməsinin əsas səbəbidir. Bununla belə, "tərcüməçilər arasında olan bu yekdillik" təəssüf doğurmaya bilməz. Məhz bu səbəbdən də birinci misrada heca sayını düzəltmək üçün tərcüməçilərin əksəriyyəti orijinalda olmayan, şeirin ruhuna uyğun gəlməyən "bir də əlvida", "əlvida artıq", "əlvida bir də", "daha ayrılaq", "əlvida daha", kimi əlavə ifadələrdən istifadə etməli olmuşlar.

Doğrusu, Ş.Sadiq ilk tərcümənin müəllifi olduğu üçün, onun, orijinaldakı "милый мой, ты у меня в груди" misrasını çox aydın və təbii olan, sanki gəl-gəl deyən "əzizim, sən mənim ürəyimdəsən" kimi tərcümə etməməsini, bunun əvəzində "səni gəzdirərəm" kimi qeyri-təbii ifadəyə üstünlük verməsini anlamaq çətindir. Bir anlığa birinci bəndi belə təsəvvür edək:

Əlvida, ey dostum, bir də əlvida,
Əzizim, sən mənim ürəyimdəsən.
İnan qarşıdakı bu ayrılıq da
Görüş vəd eləyir bizə yenidən.

Heç bir şübhəsiz, bu bənd faktik tərcümədən daha yaxşı səslənir.

Ş.Sadiqin tərcüməsindəki üçüncü - "inan qarşıdakı bu ayrılıq da" misrasını təhlil edərkən Pərvanə Məmmədova yazır: "Ş. Sadiqdə qeyri-dəqiqlik daha çoxdur. Və bu qeyri-dəqiqlik heç də açar söz olan "предназначенное" sözünün itirilməsində yox, tərcümədə "bu" işarə əvəzliyinin meydana gəlməsindədir. Belə çıxır ki, şairin müraciət etdiyi ünvanın qarşıdakı bir neçə ayrılıq haqqında məlumatı var. Bu, xüsusən bağışlanılmaz xətadır"(12, səh.43). Əslində, tədqiqatçının bu fikirlərinin özü kifayət qədər xətalıdır. Misraya bir də qulaq verək: "İnan qarşıdakı bu ayrılıq da". Şeirin intonasiyasından və ruhundan açıq-aşkardır ki, misranın "bu ayrılıq" hissəsində vurğu, Pərvanə Məmmədovanın iddia etdiyi kimi, "bu" əvəzliyinin üzərinə deyil, "ayrılıq" sözünün üzərinə düşür. Şeirdə söhbət "o ayrılıq"dan və ya "bu ayrılıq"dan getmir, sadəcə olaraq ayrılıqdan gedir. Buradan görünür ki, tədqiqatçının "belə çıxır ki, şairin müraciət etdiyi ünvanın qarşıdakı ***bir neçə ayrılıq*** (fərqləndirmə bizimdir) haqqında məlumatı var" fikrinin heç bir əsası yoxdur. Beləliklə, birinci bəndin ikinci beytini, tərcüməçi orijinala sadiqliyini saxlamaqla, şairanə tərcümə etməyə müvəffəq olmuşdur. Şeirin ikinci bəndi də bütövlükdə yüksək ustalıqla tərcümə edilmişdir. Yeganə olaraq onu qeyd edək ki, şeirin son beytində müəllif tərəfindən sanki fakt olaraq bildirilən fikir (В этой жизни умирать не ново - но и жить, конечно, не новей) bir az qeyri- müəyyən, sual formasında öz təsdiqini tapır.

Əliağa Kürçaylının tərcüməsi

Əlvida, ey dostum, əlvida artıq,
Əzizim, sən mənim ürəyimdəsən.
Taleyə yazılan hökmi-ayrılıq.
Görüş vəd eləyir bizə yenidən.

Boşla söz-söhbəti, dostum, əlvida,
Qəlbinin qəmini, qüssəsini sil.
Nə ölüm təzədir qoca dünyada,
Nə də ki, yaşamaq təzə şey deyil! (15)

Birinci misranı çıxmaqla, birinci bəndin qalan üç misrasını Əliağa Kürçaylı orijinala daha uyğun və daha şairanə ifadə etmişdir. Misralar şeirin ruhunu və məzmununu tamamilə doğru əks etdirir.

İkinci bəndin birinci beytinin tərcüməsinə gəlincə, qeyd etməliyik ki, burada Əliağa Kürçaylı onun tərcümələrində çox az rast gəldiyimiz tərzdə orijinaldan uzaqlaşmışdır. Buradakı "boşla söz-söhbəti" ifa-

dəsi bir qədər yerində deyil kimi görünür, fikirdə sanki ayrılıq səhnəsinə yaraşmayan müəyyən laqeydlik notları hiss edilir. İkinci misrada "не грусти" və "не печаль бровей" ifadələri vasitəsilə orijinal bir tərzdə, sanki iki mərhələdə verilən fikri tərcüməçi sadələşdirərək, sinonimlər vasitəsilə bir tonda vermişdir ki, bu da ayrılıqda normal səslənsə də, orijinalla müqayisədə xeyli zəif səslənir: "Qəlbinin qəmini, qüssəsini sil".

Yuxarıda qeyd etdiyimiz kimi, bu şeirdə və deməli, onun tərcüməsində əsas məqamlar hər bəndin son beytləridir. Məhz bu məqamları Əliağa Kürçaylı böyük ustalıq və şairanəliklə tərcümə etmişdir. Hər iki beyt sanki bir zərbi-məsəl kimi səslənir və sözsüz ki, bu, tərcüməni şeirin hazırda mövcud olan və gələcəkdə ola biləcək bütün tərcümələri arasında ən yaxşılardan biri kimi sığortalayır. Onu da qeyd etmək lazımdır ki, tərcüməçi bu ideal tərcüməsinə addım-addım gəlmişdir. O, ilk variantda şeirin ikinci bəndini aşağıdakı kimi tərcümə etmişdi:

Əlvida, ey dostum, nə söz, nə söhbət,
Qəm yeyib qaşını çatmağın nədir.-
Nə qoca dünyada ölüm təzədir,
Nə də ömr eləmək təzədir, əlbət? (16)

Kitabın bundan sonrakı nəşrində də tərcüməçi ikinci bənd üzərində yenidən işləmişdir:

Boşla söz-söhbəti, dostum, əlvida,
Qəlbini nə kədər, nə qüssə alsın.
Ölüm təzədir ki, qoca dünyada,
Yaşamaq özü də təzəlik olsun! (17)

Göründüyü kimi, burada son beytdəki fikir müəyyən mənada sual formasında öz təsdiqini tapmışdır. Bu məqam və ikinci misra bütövlükdə tərcüməçini qane etmir və o, axtarışlarını davam etdirərək, tərcüməsini daha da təkmilləşdirir:

Boşla söz-söhbəti, dostum, əlvida,
Qəlbinin qəmini, qüssəsini sil.
Nə ölüm təzədir qoca dünyada,
Nə də ki, yaşamaq təzə şey deyil!

Bu bəndin addım-addım dəyişən 3 variantını öz aralarında müqayisə etmək də maraqlı olar. Məsələ burasındadır ki, ilkin variantın birinci beyti son variantın birinci beytilə müqayisədə daha yaxşı səslənir və orijinala daha yaxındır. İkinci beytdə isə gözəllik, axıcılıq, şairanəlik, sözsüz ki, son variantın xeyrinədir. Bir anlığa ilkin variantdan birinci beyti, son variantdan ikinci beyti götürüb birləşdirək:

Əlvida, ey dostum, nə söz, nə söhbət,
Qəm yeyib qaşını çatmağın nədir.
Nə ölüm təzədir qoca dünyada,
Nə də ki, yaşamaq təzə şey deyil!

Şübhəsiz, Əliağa Kürçaylı bu versiya üzərində düşünmüşdür. Lakin hər iki beyti olduğu kimi saxlamaqla, qafiyələndirmədə alınan uyğunsuzluğu aradan qaldırmaq mümkün olmayınca, birinci beytdəki orijinala yaxınlığı, bilərəkdən, ikinci beytdəki şairanəliyə və axıcılığa qurban vermişdir. Heç şübhəsiz ki, tərcüməçinin qəbul etdiyi qərar özünü tam doğrultmuşdur.

Anarın tərcüməsi

Əlvida, ey dostum, bir də əlvida,
Əzizim, sən mənim ürəyimdəsən.
Müəyyən olunmuş ayrılıq günü
Vəd verir gələcək görüşümüzdən.

Əlvida, nə gərək əl vermək, ya söz,
Çatma qaşlarını, eyləmə kədər.
Ölüm bu dünyada təzə şey deyil,
Amma təzə şeydir yaşamaq məgər? (10)

Birinci bəndin tərcüməsində Anar orijinala maksimum sadiqlik göstərməyə çalışsa da, fikrimizcə, üçüncü misradakı "müəyyən olunmuş" ifadəsi ürəyə yatmır və bəndin səslənməsini zəiflədir. Şeirin ikinci bəndində də Anar orijinala inanılmaz sadiqlik göstərməyə nail olmuşdur. Xüsusən də orijinaldakı "не грусти и не печаль бровей" misrasının "çatma qaşlarını, eyləmə kədər" kimi dəqiq və şairanə ifadəsi ürək açır. Son beytin tərcüməsində də tərcüməçiyə qarşı tutula biləcək ciddi irad tapmaq mümkün deyil. Yeganə olaraq onu qeyd etmək olar ki, Ş.Sadiqdə olduğu kimi, burada da son fikir sual intonasiyası almışdır. Bütün bunlara baxmayaraq, əminliklə, "Anarın tərcüməsi yaxşı tərcümələr sırasındadır" deyə bilərik.

Nüsrət Kəsəmənlinin tərcüməsi

Əlvida, əziz dost, əlvida, bir də...
Artıq söz nə lazım qəlbi təmizə.
Bizim bu vədəli ayrılığımız
Neçə görüşləri vəd edir bizə.

Əlvida, əziz dost!.. Niyə öpüşək?
Qəm yemə, heç indi qəm yeri deyil.
Bu dünyada təzə deyil ki, ölmək;

Lakin yaşamaq da heç yeni deyil. (18)

Nüsrət Kəsəmənlinin tərcüməsində orijinaldan kənarlaşma və şeiriyyətdən zəif məqamlar kifayət qədərdir. Elə birinci bəndin ikinci misrası buna parlaq misaldır. "Artıq söz nə lazım qəlbi təmizə". Adama elə gəlir ki, bu misra başqa bir şeirə aiddir və buraya təsadüfən düşüb. Əks halda, tərcüməçini anlamaq çətin məsələdir. Tərcüməçinin orijinaldakı "предназначенное" sözünü "vədəli" kimi tərcümə etməsi də uğursuz seçimdir. Dördüncü misrada da orijinaldakından əlavə lazımsız bir məna ifadə edilmişdir. Orijinalda söhbət qarşıdakı bir görüşdən getdiyi halda (обещает встречу впереди), tərcümədə "neçə görüşlər" deyə bir neçə görüş vəd edilir.

Şeirin ikinci bəndinin tərcüməsini də uğurlu hesab etmək mümkün deyil. Bəndin birinci misrasındakı "без руки, без слова" əvəzinə, buraya heç dəxli olmayan "niyə öpüşək" fikri meydana çıxmışdır. Bir anlığa ikinci bəndin ikinci misrasına qulaq verək: "Не грусти и не печаль бровей". Qəribədir, şair dostunu qəmlənməməyə çağırsa da, bu çağırışın canında, ruhunda bir qəm-kədər səsi duyulur: "Не грусти и не печаль бровей". Tərcümədə isə qeyd etdiyimiz bu qəmkədər səsi tamamilə itmiş, əksinə, zarafatyana bir ton almışdır: "Qəm yemə, heç indi qəm yeri deyil".

Şeirin son beytinə diqqət verək:

Bu dünyada təzə deyil ki, ölmək;
Lakin yaşamaq da heç yeni deyil

Orijinalda, son beytdəki eyni sözün (ново, новей) tərcümədə, birinci misrada "təzə", ikinci misrada "yeni" kimi verilməsi də beytin səslənməsini kifayət qədər zəiflətmişdir. Onu da qeyd edək ki, bu məqam qalan bütün tərcümələrdə həssaslıqla hiss edilmişdir. Misraların hər ikisində ya "təzə", ya da "yeni" sözü işlədilmişdir.

Knyaz Aslanın tərcüməsi

Salamat qal, əziz dostum, salamat,
Əzizimsən, qəlbimdəsən həmişə.
Alnımıza yazılıbmış bu həsrət, -
Səsləyəcək bizi bir gün görüşə.

Salamat qal, nə söz söylə, nə əyil,
Nə ağırmış qəm yükünü daşımaq.
Bu dünyada ölmək təzə şey deyil,
Nə də dostum, təzəlikdir yaşamaq. (19)

Knyaz Aslan bütün əvvəlki tərcüməçilərdən fərqli olaraq «До свиданья, друг мой, до свиданья» misrasını orijinalda olduğu kimi tam dəqiqliyi ilə tərcümə etməyə üstünlük vermişdir. Yeganə olaraq birinci iki misranın hər ikisində "əziz" sözünün işlədilməsi arzuolunan deyil. Bu məqamdan qaçmaq üçün, məsələn, birinci misranı "salamat qal, vəfalı dost, salamat" kimi vermək olardı. Birinci bəndin ikinci beyti gözəl səslənir, lakin burada da bir məqam var. Orijinalda indiki zamanda işlənən fikir ("обещает") tərcümədə "səsləyəcək" deyərək gələcək zamanda verilir.

İkinci bəndin birinci misrasındakı "nə əyil" bir qədər yersiz görünür. Yəqin ki, söhbət "dərdə əyilmək"dən gedir. İstənilən halda təsvir uğurlu deyil. Həmin bəndin ikinci misrası isə orijinaldakı fikrin ciddi təhrif edilməsidir: "Nə ağırmış qəm yükünü daşımaq". Burada şair sanki dostunun yerinə qərar verir. Qəmlənəcək, kədərlənəcək ünvan şairin özü deyil, onun dostudur, şair dostuna müraciət edərək deyir: "Не грусти и не печаль бровей". "Nə ağırmış qəm yükünü daşımaq" fikri də şairin öz dilindən deyil, dostunun dilindən işlənə bilər, başqa sözlə, bu yükün ağır olub-olmadığını dostu deyə bilər.

Şeirin son beyti isə, heç şübhəsiz, bütün tərcümə variantları arasında həmin beytin ən uğurlu tərcümələrindən biridir:

Bu dünyada ölmək təzə şey deyil,
Nə də dostum, təzəlikdir yaşamaq.

Firuz Mustafanın tərcüməsi

Əlvida ey dostum, daha ayrılaq,
Vuran qəlbimdəsən mənim hər zaman.
Əzəldən gözlənən bu cür ayrılıq
Yeni görüşlər də vəd edir, inan.

Əlvida, əzizim, göz yaşını sil,
Bu kədər, bu qüssə yaraşmır bizə.
Bu həyatda ölmək təzə şey deyil,
Elə yaşamaq da deyildir təzə. (20)

Bəşər əl-Əsəd Amerikaya "dirsək göstərir", İranı ayağa vermir, İraqa qarşı çıxmır və... təcrid olunmaqdan da qorxmur!

Atasının 1973-cü ildə İsraildən qəfil hücumla alıb, əks-hücumla itirdiyi Holan yüksəkliyini elə həmin İsrailin baş naziri Oxud Olmert Bəşər əl-Əsədə, Bəşər əl-Əsədin təbirincə desək, "işğala son qoymaq" naminə qansız-qadasız verməyə razı olduğunu bəyan edir! Lakin... "Hizbullah", "Həmas", İran və İraqla əlaqələrini kəsməkdən vaz keçən Bəşər əl-Əsəd bu anlaşmaya imza atmır!!!

Holan yüksəkliyinin strateji, iqtisadi, həyati, hərbi və digər üstünlüyünü belə çatdırmaq olar: Əvvəla, Dəməşqi də, Təl-Əvivi də, Yerusəlimi də bu yüksəklikdən çox əla müşahidə etmək, dinləmək, atəşə tutmaq mümkündür. Ümumilikdə, Yaxın Şərq üçün bu yüksəkliyin çox böyük strateji əhəmiyyəti var. İkincisi, həm İsrail, həm də digər qonşu ərəb ölkələri üçün həyati əhəmiyyətli İordan çayının mənbəyi bu yüksəklikdədir. İordan çayına nəzarət edən ölkə istənilən qonşusuna təzyiq edə bilər – suyu kəs, canını al!

Dini aspektdən yanaşanda da, yəhudilər hesab edir ki, bu torpaqları on-

lara Allah bağışlayıb, ərəblərə də ümumiyyətlə yəhudiləri nəinki Holan yüksəkliyində, bütövlükdə Yaxın Şərqdə görmək çətin gəlir: "iki min ildi qaraçılıq edirlər, çıxıb getsinlər gəldikləri yerlərə..."

Yəni... qloballaşan, ikili standartların superdövlətlər tərəfindən sürdürüldüyü düzəndə, altı qonşudan biri sənin düşmənin, beşi də dünyanın düşmən saydığı bir geopolitik durumda bu qədər "ağızbəhəmlik etmək" hər siyasətçinin işi deyil! Beləsinə deyirlər "şah oğlu şah" – prezident seçiləndə cəmi 34 yaşı vardı!

"Söz-söhbətsiz ailə yoxdur!"

Dost-tanışlarının, iş yoldaşlarının mülayim, yumşaq bildiyi Bəşər əl-Əsəd heç də yumşaq, mülayim deyil: doğmaca bacısının əri, hərbi kəşfiyyatın rəisi olan yeznəsini Bəşər əl-Əsəd ev dustağı edib – "Hizbullah"ın lideri İmad Muqniyənin və Livanın baş naziri Rafiq Həririnin ölümündə suçlu sayıldığına görə. Bir yandan beynəlxalq ekspertlərin, bir yandan da Bəşər əl-Əsədin şəxsən isti münasibətlər qurduğu, əməkdaşlıqdan imtina etmədiyi İranın qatili tapmaq təzyiqlərinin nəticəsi olaraq!



Həmin bu yumşaq, mülayim Bəşər əl-Əsəd çevriliş cəhdinə görə Amerikada sığınacaq tapan, adı irimiqyaslı narkoticarətdə hallanan əmisi Rifayətin oğluna məxsus Dəməşqdəki ən böyük restoranı "korrupsiya ilə mübarizə" adıyla bağladıb!Özü də şəxsən etiraf edib ki, əmiləri və əmiuşaqlarının davranışı onu bezdirib!

Hələ atasının sağlığında səlahiyyətlər verilən Bəşər əl-Əsəd daxili təhlükəsizlik xidmətinin əliylə mümkün açıq və gizli rəqiblərini hətta azadlıqdan belə məhrum etməkdən çəkinməyib: "bilin ki, evdə yeni sahib kimdir!"

Ən uğurlu əməliyyatlarından biri hərbi kəşfiyyatın rəisi, eyni zamanda iri narkobaronlardan sayılan Əli Dubun oğlu Məhəmməd Dubun həbsidir – bu həbs narkoticarətçilərə zərbədən çox, generalı və ətrafını qazanc mənbəyindən məhrum edib, hakimiyyət uğrunda mübarizədə zərərsizləşdirməkdir. Bununla da o nəinki siyasi çəki əldə etmiş olub, eləcə də siyasi rəqiblərindən necə asanlıqla izal olmağını nümayiş etdirib. Elə həmin ərəfələrdə Suriya xüsusi təyinatlı birləşməsinin rəhbəri Əli Heydəri istefaya göndərib!

Çox maraqlıdır ki, Bəsilin sağlığında, yəni onun prezidentliyə varisliyi güman edilən dönəmlərdə Bəşər əl-Əsədin ailədə hamıdan çox yaxın olduğu bacısı Buşra əl-Əsədin "Suriyanın birinci ledisi"ylə ulduzu barışmır. Yeznə – böyük bacı Buşranın əri Asəf Şövkətin də qaynı Mahirlə bir-birini görməyə gözü yoxdur!

Amma doqquzillik prezidentlik dönəmində Bəşər əl-Əsəd hamını yerində oturda bilib – qohumu da, yadı da, qonşularını da, düşmənlərini də. Artıq ikinci dəfə yeddi illiyə seçilən Bəşər əl-Əsədin üstün və zəif cəhətləri bilinir, eyni zamanda o da bilinir ki, Suriyada söz sahibi kimdir – hərçənd ondan gözləyirdilər ki, atası kimi, Yaxın Şərqdə də yuxarı başa o dəvət olunsun.

"Doğulanda gərək prezident doğulasan"

Bəşər əl-Əsədin prezidentliyəqədərki həyatına nəzər yetirəndə, adamın ağlına da gəlməz ki, ondan prezident olar. Tarixə istinad etsək, Şarl de Qoll məhz prezident, ali baş komandan kimi aparıb özünü, Bəşər əl-Əsəddən fərqli olaraq – hətta kursant olanda belə bu iddia hiss olunub! Sözarası deyək ki, Şarl de Qoll hərbi məktəbdə oxuyanda müdafiə naziri baxış keçirərkən Şarlın intizam və hərbi davranış qaydalarına riayətini görüb komandirinə irad tutub ki, niyə o, serjant deyil? Komandiri cavabında bildirib: "o özünü ali baş komandan kimi aparır, onu necə serjantlığa layiq bilim ki?"

Bəşər fransız dili təmayüllü məktəbdə təhsil aldığından, ingilis və fransız dillərini gözəl bilir. Müasirimiz olsa da, tərcümeyi-halında dəqiqləşdirilməyən faktlar da var.

Bir variantda hərbi xidmət keçəndən sonra serjant rütbəsində tərxis olunandan, digərində isə birbaşa, orta məktəbdən sonra ali məktəbə qəbul olunduğu bildirilir. Xəbər başlıqlarında avqustda dünyaya gəldiyi qeyd olunsa da, rəsmi informasiyalarda sentyabırn 11-i göstərilir.

Ali tibb təhsili alandan sonra Dəməşq yaxınlığındakı "Tişrin"

hərbi hospitalında həkim oftalmoloq kimi fəaliyyətə başladığı, az sonra – 1991-ci ildə (bəzi mənbələrə görə, 1992-ci ildə) Londonun Paddinqton rayonunda Müqəddəs Mariya xəstəxanasnın Western Eye Hospital-ında staj keçdiyi məlumdur. Oftalmologiya ilə yanaşı, informatika ilə maraqlanıb. Paraşütdən tullanmağı da sonradan öyrənib.

Atası artıq onu özünə varis seçəndən sonra ciddi şəkildə hərbin sirlərinə bələd olub. Deyilənə görə, nəzəriyyəni ona özününkülərlə yanaşı, bir rus zabiti də öyrədib.

Atası ölənəcən polkovnik rütbəsinə çata bilib. Amma atasının qəfil ölümü ona həm general leytenantlıq, ali baş komandanlıq, prezidentlik gətirib, həm də Konstitusiyaya düzəliş – məhz Bəşər əl-Əsədin xətrinə prezidentliyə namizədin yaş senzi 40-dan 34-ə salınıb.

Bəşər əl-Əsəd məhz bu yaşda prezident seçilib – 17 iyul 2000-ci il.

Elə həmin ilin dekabrında Böyük Britaniyada yaşayan, Suriya sünnilərindən olan hörmətli və nüfuzlu həkim Əxras ailəsində dünyaya gələn, özündən on il kiçik olan Əsma ilə ailə həyatı qurub. Xalq öz prezintinin toyundan, "birinci ledi"nin kimliyindən bir neçə həftə sonra mətbuatdan xəbər tutub.

Xanımı iqtisadçı və kompüter texnologiyası üzrə mütəxəssisdir.

"Suriyanın birinci ledisi" olmaq xatirinə "Döyçebank"ın London filialındakı işindən çıxıb. Amma ikili vətəndaşlığı saxlayan "birinci ledi" arada şəxsi vizitlə Londonda olur. Tez-tez rəsmi törənlərdə görünən xanım əl-Əsəd Avropa dəbi ilə geyinir.

Bəşər əl-Əsədin iki oğlu, bir qızı var. Böyük oğluna atasının şərəfinə Hafiz adı qoyub.

"Qurana and içirəm ki, konstitusiyaya, qanunlara hörmətlə yanaşaram və xalqıma xidmət edərəm"

...Hələ ki, heç bir prezident seçiləndə bunun əksini deməyib. Allah naminə, Bəşər əl-Əsəd sələfindən fərqli olaraq, bir çox şeyləri edib.

Məsələn, 2003-cü ildən Suriyada BƏƏS-dən olmayanlar da deputatdır – Bəşər əl-Əsəd alternativlərin də seçilmək hüququnu tanıyıb.

Hakimiyyətinin ilk illərində bir qrup siyasi məhbus azadlığa buraxılıb. İlk müstəqil qəzet nəşr olunmağa başlayıb. Siyasi forumlar keçirilib, özəl universitetlər, banklar və fond birjaları yaradılıb.

Ekspertlərin fikrincə, Bəşər əl-Əsəd dövlət strukturlarının liberallaşdırılmasında israrlıdır. Eyni zamanda, hakim BƏƏS-in rəhbər vəzifələrə təyinatını ləğv edib. 2001-ci ildə hökuməti istefaya göndərən Bəşər əl-Əsəd Mustafa Mirə, əvvəlki illərdən fərqli olaraq, yeni tərkibi formalaşdırmaqda üstünlüyü hərbçilərə deyil, 50 yaşına qədər mülki vətəndaşların təmsilçiliyinə verməyi tövsiyə edib.

2003-cü ildə bir daha hökuməti istefaya göndərən Bəşər əl-Əsəd bu dəfə parlamentin sədri, liberal islahatlar tərəfdarı Mühəmməd Naci Ətariyə etimad göstərib. 2000-ci ildən 2004-cü ilədək kadr yerdəyişmələri zamanı 15 faiz yüksək rütbəli məmurları, əsasən də hərbçiləri dövlət idarəetməsindən uzaqlaşdırıb.

Amma bir orası da var ki, Bəşər əl-Əsəd apardığı islahatlarda ardıcıl olmayıb, bəzi planlarında dəyişikliklər edib. Elə hakimiyyətinin ilk ilindəcə siyasi baxışlarına görə azadlıqdan məhrum edilənlərə azadlıq verən Bəşər əl-Əsəd 2001-ci ildə nəinki islahatları, eləcə də 1962-ci ildən qüvvədə olan fövqəladə vəziyyətin dəyişilməsi məsələsini gündəmə gətirən "Dəməşq baharı" islahatçı təşkilatının üzvlərinin həbsinə laqeyd qalıb.



"Ciddi ittihamlar cavabsız qalır"

2005-ci ilin martında 16 minlik hərbi kontingenti Livandan çıxarmağa razılaşan Bəşər əl-Əsədi 2006-ci ildə Fransada mühacirətdə olan keçmiş vitse-prezident Əbdülhəlim Xəddam açıq mətnlə ittiham edib: "2005-ci il dekabrın 30-da Rafiq Həririnin öldürülməsini məhz Bəşər əl-Əsəd əmr edib".Hələ ki... ittiham cavabsızdır!

2006-cı ilin yayında başlayan İsrail-Livan münaqişəsindən sonra isə Bəşər əl-Əsəd İsraili terrorçu dövlət adlandırıb – ittiham hələ də cavabsızdır! Baxmayaraq ki, Suriya hərbi hava qüvvələri İsrail kəşfiyyat təyyarələrini atəşə də tutub.

İsrailə atəş açıb müharibə etməyən Suriyanın Holan yüksəkliyiylə bağlı danışıqları bilmərrə kəsməmək üçün bu addımı atdığı bildirilsə də, ittihamlar cavabsızdır!

"Bir daha və yenidən – yaşasın Bəşər əl-Əsəd"

Prezidentliyinin ilk yeddi ilində haqqında ən müxtəlif mühakimələr və gümanlar yürüdülsə də, heç biri özünü doğrultmadı!Təkcə Bəşər əl-Əsəd özünü və ona göstərilən etimadı doğrultdu: o bir daha və yenidən – düz yeddi il əvvəl se-

çildiyi gün, həm də prezidentlik mandatı bitdiyi gün prezident seçildi – 17 iyul 2007-ci il.12 milyon seçicidən cəmi 19653 nəfəri əleyhinə olmaqla! Suriya rəsmi dairələrinin rəsmi statistikası belə deyir. Növbəti seçki 2014-də olmalıdır! Ona qədər isə hələ bir ömür var...

"Allah qoruduğunu qoruyur"

Bəşər əl-Əsədi xarakterizə edərkən, ibrətamiz nüansları çatdırmağı özümə borc bilirəm: heç kimin siyasətçi və dövlət xadimi kimi görmədiyi Bəşər əl-Əsəd genetik kodların nəzərə alınmasının vacibliyini ortaya qoydu! Təsəvvür edin ki, "əzdim-büzdüm" manerasını lətifə mövzusu edənlər varis kimi adı hallanandan ikicə il sonra enerjili və mükəmməl komanda başçısı ilə üz-üzə qalmış oldular!

Atası bir yana, hətta qardaşının xarizmasına malik olmasa da, az bir vaxtda ədalətli və vicdanlı siyasətçi obrazını yarada bildi!

Böyüklər ona görə böyükdür ki, uzaqgörəndirlər – Hafiz əl-Əsəd Suriya üçün də, dünya üçün də bir nümunə göstərdi: uşaqlarınızı oxudandan sonra onlardan heç nə tələb etməyin, bacarırsınızsa, özünüz ölənə qədər onlara kömək etmək, yol açmaq, zirvələrə ucaltmaq barədə düşünün!

...Bu gün Bəşər əl-Əsədi avtoritet kimi qəbul etdirən daha bir məqam var – seçiləndə hamı düşünürdü ki, bu cavan oğlanda siyasi iradə və qətiyyət çatmayacaq "çevriliş əjdahaları"yla döş-döşə gəlsin!

İki vitse-prezident – Əbdülhəlim Xəddam və Züheyrə Maşarka; "Suriyanın ikinci şəxsi", Bəşər əl-Əsədin özünün istefaya göndərdiyi baş qərargah rəisi, Amerikada sığınacaq tapan Hikmət Şihabi; Hafiz əl-Əsədin balaca qardaşı, keçmişdə parlamentin üzvü, siyasi iddiası, gücü aşıb-daşan Cəmil; mərhum prezidentdən incik düşən nə qədər nüfuzlu məmur, Bəşər əl-Əsədə qısqanan iliyinəcən hərbçi generallar... Növbəti seçkilərə onlardan... heç kim ortaya çıxmadı! Baxmayaraq ki, Amerikanın "Parade" jurnalı Bəşər əl-Əsədi 2003-cü ildə diktatorlar siyahısında 13-cü yerə "layiq" görmüşdü – bəzən Amerikanın təbliğatı da səmərəsiz olurmuş!

Çoxları deyirmiş ki, düzdür, Bəşər bilir atası otuz il hakimiyyəti əlində necə saxlayıb, amma sual odur ki, o da bunu bacaracaqmı – qəddarcasına açıq və gizli düşmənləri məhv edərək, xalqı qorxuda saxlayaraq? Bilmək olmur ki, bu göygöz həkim oğlanın əlindən nə möcüzə-məğlətə çıxacaq! Möcüzə olmasa, hakimiyyət əlində qalmayacaq! Bəşər əl-Əsəd heç bir möcüzə göstərmədi! Amma hakimiyyətdə də qaldı – ikinci dəfə də... Qalmayan... boş fantaziyalar-xülyalar oldu!

"Vaxtın yoxluğunda səmərəli istirahət"

Hələlik isə... Bəşər əl-Əsəd – əsl şəhər adamı kimi, arada cangüdənsiz-filansız, ailə-uşağıyla birgə, Dəməşq restoranlarına şam yeməyinə də gedir, baxmayaraq ki, zarafatla dediyi kimi, salamlaşmaq istəyənlərin əlindən bir tikə çörək də yeyə bilmirlər. Gəncliyində poeziya ilə maraqlanan Bəşər əl-Əsəd indi əsasən tarixi əsərləri daha çox oxuyur, musiqidə Fil Kollinz və Uitni Hyustonu xoşlayır.

"Zahirlə batinin ifadəsi"

Basketbolçu boyu olan Bəşər əl-Əsədin cazibədarlığı onunla fərqlənir ki, ahəstə səsi və yumşaq manerası var. Heç vaxt müsahibinin sözünü kəsmir: "Əgər düşüncə inkişafa mane olursa, o, mütləq dəyişilməlidir", - fikrini təkrarlamaqdan usanmır.

Londonda onunla tay-tuşluq edən dostları birmənalı şəkildə deyirlər: "ipək kimi yumşaq, sakit və xeyirxah adamdır".

Son doqquz ildə onun tabeliyində işləyənlər isə hələ ki... heç nə demirlər!

Bəşər əl-Əsəd haqqında deyiblər:

Rusiyanın keçmiş prezidenti, hazırkı baş naziri V. V.Putin: "Bəşər əl-Əsəd atasının - beynəlxalq miqyaslı siyasi xadimin, xalqımızın və ölkəmizin böyük dostu Hafiz Əsədin şöhrətli ənənələrini layiqincə davam etdirir".

ABŞ-ın keçmiş prezidenti Corc Buş: "Suriya lideri başa düşməlidir ki, biz onun fəaliyyətsizliyinə ciddi önəm veririk. Onun rejimi çıxılmaz və dərin izolyasiyaya düşə bilər. Bunun üçün ən azı iki səbəb var: birincisi ona görə ki, İraqın təhlükəsizliyi naminə İraq rəhbərliyi ilə əməkdaşlıq etmir, ikincisi də, indiyə qədər Livanda Suriya qoşunlarının fəaliyyəti barədə arayış təqdim etməyib".

Venesuela prezidenti Uqo Çaves: "Suriya prezidenti ilə siyasi baxışlarımız eynidir. Biz birlikdə amerikan imperializminin təcavüzünə qarşı mübarizə aparacağıq. Biz birlikdə elə bir yeni dünya quracağıq ki, orada xalqların hüquq və öz müqəddəratını təyin etməsinə hörmətlə yanaşılacaq. Bəşər Əsədlə bir sırada Amerikanın hegemonluğuna son qoyacağıq və bir yerdə ABŞ imperializminin qəbrini qazacağıq".

Aydın Canıyev,
LENT.AZ



ЛЮБОВНЫЙ ГОРОСКОП 2010



Овен

21 марта - 20 апреля


Первая половина наступающего 2010 года для Овнов - самое романтическое и интересное время для любовных отношений. Есть вероятность встретить человека, который поможет скрасить серые будни.

Возможно, что для многих Овнов, желающих обрести семейное гнездо и создать теплые отношения, это знакомство закончится браком.Более благоприятным временем для создания семьи будут октябрь и ноябрь.

Стабильные семейные Овны в этом году будут больше внимания уделять своим домочадцам, особенно детям. Но во втором полугодии атмосфера во многих семьях может измениться к худшему. Причиной семейных неурядиц могут стать новые увлечения как самого Овна, так и его второй половинки.

Несмотря на неустойчивость семейного положения, вы сможете найти утешение и преодолеть все трудности. Ваше семейное положение стабилизируется, а отношения между любящими супругами наладятся.

Вообще, семейная жизнь для большинства Овнов будет весьма удовлетворительной



Телец

21 апреля - 20 мая

Прогноз на 2010 год для Тельца в семейном плане и любви несколько неутешительный. Из-за плохого слияния Марса и планет Сатурна люди Тельца могут подвергнуться серьезному напряжению в первой половине года.

Большая трещина в семейной жизни может назреть в первой четверти года. Многие разногласия и неурядицы возникнут из-за материальных проблем. Решать все семейные дела вам нужно вдвоем, но ваша половина не захочет принимать участия, из-за чего может наступить период непонимания. Вы будете двигаться в нужном направлении и сможете разрешить конфликты в обеих сферах, но для этого вам понадобится огромное терпение.

Во второй половине года страсть и романтизм станут для вас и вашей половины превыше многих других проблем. Охлаждение чувств, неприязнь, обиды отойдут в сторону и забудутся. В редких случаях охлаждение и ссоры в отдельно взятых парах зайдут слишком далеко и возможен разрыв отношений.

Последняя часть года принесет всем Тельцам надежды, любовь, романтику. Во многих семьях появятся дети и внуки.

Одиноким Тельцам год не принесет больших перемен, жаждущим создать семейное гнездо вряд ли удастся это сделать. Свадьба и брак может быть только у тех представителей этого знака, чьи отношения начались еще в 2009 году. Но это не значит, что на любовном фронте будет затишье. Ваша натура не даст вам скучать, и будет много встреч, знакомств и романтических приключений.



Близнецы


21 мая - 21 июня

Большая часть 2010 года для Близнецов станет благоприятным временем в любовных делах. Представители этого знака будут наделены особым шармом и притягательностью.

Семейным Близнецам 2010 год принесет толику проблем в браке. Пустые разговоры и ваша беспричинная ревность будут приводить к конфликтам. Однако, осознав свои ошибки, вы найдете пути примирения, и обоюдная любовь получит как бы второе рождение.

В целом ваши семейные отношения в 2010 году будут зависеть только от вас. Если вы захотите, то в семье будут царить только гармония, тепло и уют. Но если вы будете несдержанны, то отношения затянет в череду конфликтов и разногласий. Поэтому звезды рекомендуют беречь вашу вторую половинку и себя от всяческого рода встрясок.

У одиноких представителей этого знака Зодиака не за горами новые знакомства. С середины года вас ожидают захватывающие любовные приключения. Многие Близнецы в этом году вступят в брак, и наилучшим временем для этого серьезного предприятия будет лето.



Рак

24 октября - 22 ноября

Этот 2010 год будет благоволить Раку на любовном фронте, как никакому другому знаку Зодиака. Магнетизм и привлекательность одиноких Раков будут будоражить чувства и разобьют сердца многих поклонников.

Чтобы добиться наибольшего успеха и достигнуть своих целей, звезды вам рекомендуют меньше афишировать свои отношения. Некоторые завистники и лицемерные лжедрузья могут разрушить вашу пару.

Особого успеха следует ожидать после мая, когда любовные приключения будут сопровождать вас не только в свободное время, но и на работе. Для Раков, которые хотят создать семью, этот год будет наиболее удачным. Вам обязательно встретится человек, который окажется именно тем принцем, о котором можно только мечтать.

Что касается людей семейных, то этот год не принесет особых перемен. Во многих семьях все будет происходить по привычному сценарию. Небольшие разногласия, которые есть в любой семье, будут быстро разрешены, а мелкие обиды - легко забыты. В целом, в 2010 году в прочных семьях будет царить гармония, любовь и романтика.



Лев

23 июля - 23 августа

В 2010 году большинству семейных представителей этого знака Зодиака придется пережить череду неурядиц и разногласий в браке.

Лев должен быть осторожным в семейных отношениях, потому что сам зачастую является причиной проблем. Однако если Лев будет действовать с умом, то сможет найти выход даже из самой сложной ситуации. Приобретение или ремонт жилья облегчит и улучшит жизнь стабильным парам. А тем Львам, чьи отношения дали трещину, предстоит один из сложных периодов жизни, который прекратится ближе к осени.

Что же касается одиноких Львов, то в этом году для них самой удачной будет любовная сфера. Победа на любовном фронте гарантирована, но без интриги не обойтись. Возможно, новая любовь, которая появится у вас в 2010 году, заставит полностью изменить весь жизненный уклад. Многие одинокие Львы обретут свою половинку и в течение года совьют семейное гнездо.



Дева

24 августа - 23 сентября

С приходом нового года в жизни Девы начнут происходить кардинальные перемены. Желательно пересмотреть отношение к своей второй половинке и стать более романтичными и лояльными, что многие представители этого знака и сделают.

Перемена в поведении Дев положительно скажется на семейных отношениях. В браке с приходом весны воцарится полная гармония и спокойствие. Многие пары переживут второе рождение своей любви и начнут лучше относиться друг к другу.

Что касается одиноких Дев, то начало года не сулит им

особых перемен. Зато летом во время поездки или путешествия произойдет неожиданная встреча, которая нарушит равновесие души и вызовет огромное желание любить и быть любимым.

Романтическое приключение продлится очень долго и для некоторых представителей этого знака закончится браком.



Весы


24 сентября - 23 октября

2010 год для Весов - пора великих свершений, но не в области любовных и романтических отношений. Представители этого знака так будут заняты своей работой и карьерой, что порой будут забывать о том, что семья превыше всего. Но зато карьерный рост и урегулирование денежного вопроса помогут в дальнейшем стабилизировать отношения в семье.

Вашей второй половинке будет вас немного не хватать, но те партнеры, которые отнесутся с пониманием к действиям Весов, в дальнейшем поймут, что на данном жизненном пути надо было позаботиться о доходах, которые пойдут на благо семье.

Летом рекомендуется непременно съездить в отпуск со своей второй половиной, где вы сможете уделить больше внимания друг другу, найти точки соприкосновения и добиться взаимопонимания.

Для одиноких Весов год обещает быть необычным и интересным в эмоциональном плане. 2010 год для Весов - время новых чувств. Вы сможете встретить новую любовь или перевести прежние связи на качественно новый уровень. С самого начала года ваши магнетизм и обаяние будут на высоте, вы сможете с лихвой компенсировать эмоциональные потери предыдущих лет, и в конечном счете добиться значительных побед на любовном фронте.



Скорпион

22 июня - 22 июля

У Скорпионов в 2010 году будет удивительная семейная жизнь, особенно в первой половине года. Отношения между супругами будут более чем романтичными. Даже если в прошлом ваша семейная жизнь напоминала действующий вулкан, то теперь ваш брак стабилизируется.

Однако во второй половине года в тех парах, где остро стоит вопрос нехватки денежных средств, могут возникнуть некоторые проблемы и разногласия. Если удастся придти к компромиссу, то вам удастся вернуть чувствам былую свежесть и трепетность.

Одинокие Скорпионы с начала года будут находиться в активном поиске идеального партнера, весной же магнетизм и неотразимость достигнут апогея. Однако манера поведения может вызвать протест со стороны вашей второй половинки и стать причиной разрыва. Скорпиону нужно быть более мягким и избавиться от чрезмерных претензий.

В целом год не несет особых перемен, но любовные приключения не исключены. Брак и семью удастся создать лишь немногим представителям этого знака, чьи чувства будут по-настоящему искренними и крепкими.



Стрелец

23 ноября - 21 декабря

Семейная жизнь Стрельцов в 2010 году начнется с небольшого минора. В первой половине года в вашем семейном гнездышке возникнут конфликты и разногласия. Придется много трудиться, чтобы решить все проблемы.

У некоторых представителей этого знака отношения могут ухудшиться из-за тайны, которая станет явной для вашей второй половинки. Поэтому рекомендуется ничего не скрывать и не совершать необдуманных действий. Наиболее проблематичными окажутся май и апрель. Для многих Стрельцов залогом семейного благополучия станет решение финансовых проблем.

Ближе к лету проблемы удастся преодолеть и все конфликты утихнут и сойдут на нет. Зато осень подарит вам любовь и взаимопонимание, все Стрельцы займутся решением семейных дел, и в доме воцарится гармония.

Что касается одиноких Стрельцов, то романтические отношения в этом году могут легко превратиться в нечто более серьезное, хотя первая половина года может сложиться и не слишком удачно. Людям этого знака Зодиака лето подарит новые знакомства, любовь и понимание. В этом году счастье для вас вполне достижимо.



Козерог

22 декабря - 20 января

Для многих Козерогов в 2010 году дела семейные будут важнее карьеры и других дел. У нестабильных пар отношения начнут понемногу налаживаться, однако некоторые недоразумения и стрессы заставят задуматься о будущем вашей семьи.

Планеты рекомендуют Козерогу снизить свои требования, кое в чем пойти на компромисс или хотя бы просто переждать. И тогда многие трудности в семейных отношениях будут легко преодолимы. В целом, год не принесет глобальных перемен.

Одиноким Козерогам в начале года будет не до любви. На первый план выйдет необходимость решения других проблем. Для снятия напряжения от одиночества в начале года вам рекомендуется побыть в уединении и привести свои мысли в порядок. Ближе к весне стоит с новыми силами взяться за жизнь личную, потому что обстановка на личном фронте в этом году зависит только от вас.

Если вы поставите перед собой цель создать семью, то это произойдет. Но если вы будете сомневаться, то отношения не приведут к браку. Если вы еще не нашли свою вторую половинку и вам хочется это сделать, то весна - самое лучшее время для этого. Но вы сами должны этого захотеть, а не сидеть дома и ждать, когда вторая половинка найдет вас сама. И не только захотеть, но и начать действовать.



Водолей

21 января - 20 февраля

Любовный прогноз на 2010 год для Водолея является весьма удовлетворительным. Отношения между супругами будут благоприятными, глобальных проблем в семье не предвидится. Материальная стабильность, умиротворение и расслабленность будут царить практически весь год в семье Водолея.

Непросто пройдет год у тех семейных Водолеев, которые имеют увлечения на стороне. Стоить помнить, что если раньше ваши романы были незамеченными, то этот год ознаменован разоблачениями и конфликтами на их почве. По сути, вы сами можете избежать всякого рода встрясок, если не будете заводить интрижек.

Для одиноких Водолеев 2010 год - очень интересное время в эмоциональном плане. Наконец, на вашем горизонте появятся новые знакомства, которые закончатся продолжительными отношениями. И ближе к осени эти отношения выльются в нечто серьезное.



Рыбы

21 февраля - 20 марта

В 2010 году для Рыб в жизни брака практически одни положительные аспекты. Рыбы будут с любовью относиться к своей половине, что будет подкреплено взаимностью. Рыбы в этом году станут самыми преданными членами семьи из всего зодиакального круга. В дружных парах весь год будет царить уют и гармония.

Конфликты могут случиться только в тех семьях, где вторая половина попытается доминировать и взять все в свои руки, показывая превосходство над партнером. Однако Рыбы смогут контролировать ситуацию, и если будут терпеливы, то смогут решить конфликтные ситуации даже в самых невероятных случаях.

В начале года случайные знакомства не принесут одиноким Рыбам никаких плодов и будут временными и несерьезными. Только к концу весны в Рыбах начнут пробуждаться романтические чувства. Настоящую любовь вы сможете найти летом 2010 года в поездках или на просторах Интернета. Не пренебрегайте случайными знакомствами - кто знает, может, это выльется во что-то большее? В целом, 2010 год не принесет одиноким Рыбам особых перемен.

İDMAN

AZƏRBAYCAN RESPUBLİKASININ GƏNCLƏR VƏ İDMAN NAZİRLİYİ ƏN YAXŞILARIN ADLARINI AÇIQLAMIŞDIR

Dekabrın 24-də "Buta Palas"da keçirilmiş təntənəli mərasimdə ən yaxşı idmançıların, məşqçilərin, komandaların və digər nominasiyalar üzrə qaliblərin adları açıqlanmışdır.

Təntənəli mərasim Azərbaycanın dövlət himninin səslənməsi ilə başlanmışdır. Azərbaycan Prezidenti İlham Əliyevin idman mütəxəssislərinə fəxri adların və fərdi təqaüdlərin verilməsi barədə sərəncamları oxunmuşdur. Gənclər və idman naziri Azad Rəhimov çıxışında qeyd etmişdir ki, **Azərbaycan idmançıları 2009-cu ildə 619 medal qazanmışlar, onların 174-ü Olimpiya idman növlərində əldə edilmişdir.** Bu il Azərbaycanın idman həyatı parlaq qələbələrlə yadda qalmışdır. İdmançılarımızın beynəlxalq yarışlarda qazandıqları uğurlar, bir sıra olimpiya komplekslərinin və idman mərkəzlərinin istifadəyə verilməsi, ölkəmizdə 30-dan çox beynəlxalq yarışın keçirilməsi – bütün bunlar Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevin bədən tərbiyəsi və idmanın inkişafına daimi diqqətinin və qayğısının nəticəsidir.

Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə mərasimdəki çıxışında bildirmişdir ki, 2009-cu il Azərbaycan idmanı üçün çox uğurlu il olmuşdur. İdmançılarımız cari ili yüksək göstəricilərlə başa vurmuşlar. Çingiz Hüseynzadə qeyd etmişdir ki, Azərbaycan idmançıları bu il ilk dəfə olaraq ölkəmiz üçün əhəmiyyətli titulların sahibi olmuşlar. Kişilərdən ibarət şahmat üzrə yığma komandamız Avropa çempionu olmuşdur. Avarçəkənlərimiz Dünya və Avropa çempionatlarının medallarını qazanmışlar. Dörd "qızıl", bir "gümüş" və bir "bürünc" medal əldə etmiş sərbəst güləşçilərimiz komanda hesabında Avropa çempionu adına layiq görülmüşlər. Danimarkanın Xerninq şəhərində sentyabr ayında keçirilmiş Dünya çempionatında qadınlardan ibarət güləş üzrə yığma komandamız birinci yeri tutmuşdur. Qadın gimnastlarımız və yüngül atletika üzrə idmançılarımız da yaxşı nəticələr göstərmişlər. Çingiz Hüseynzadə Milli Olimpiya Komitəsinin prezidenti adından bütün idmançıları təbrik etmişdir. Sonra ilin ən yaxşı idmançılarının adları açıqlanmışdır. İlin ən yaxşı komandası dörd komandanın mübarizəsində finala çıxmaq hüququ əldə etmiş futzal üzrə "Araz" klubu olmuşdur. Avropa çempionu – kişilərdən ibarət şahmat üzrə yığmamız ilin ən intellektual komandası hesab edilmişdir. Day. az internet-portal ən yaxşı sayt hesab edilmişdir.

İlin ən yaxşı fəal veteranı **Məmməd Hüseynov,** *idman tarixçisi* **Dilqəm Quliyev** *olmuşlar. Ən yaxşı idman təşkilatı* **"Neftçi" İdman Sağlamlıq Mərkəzi, Lənkəran UGOEM**-*i isə ən yaxşı uşaq təşkilatı adlandırılmışdır.* **Heydər Əliyev adına İdman-Konsert Kompleksi** *ilin ən yaxşı idman kompleksi hesab edilmişdir.* **Gimnastika Federasiyası** *ilin ən yaxşı federasiyası,* **Firdovsi Umudov** *ən yaxşı məşqçi* adlandırılmışlar.

Sonra nazir Azad Rəhimov ilin ən yaxşı idmançılarının adlarını açıqlamışdır. Bu siyahıya yunan-Roma güləşi üzrə ikiqat dünya çempionu **Fərid Mansurov,** *dünya çempionatının mükafatçısı, gimnast* **Aliyə Qarayeva,** *cüdo üzrə gənclər arasında Avropa birinciliyinin mükafatçısı* **Elmar Qasımov,** *yüngül atlet* **Ramil Quliyev,** *ağırlıqqaldıran* **Nizami Paşayev,** *şahmatçı* **Vüqar Həşimov,** *qadın güləşçi* **Mariya Stadnik,** *taekvondoçu* **Rəşad Əhmədov,** *avarçəkən* **Valentin Demyanenko** *və paralimpiyaçı* **Hüseyn Həsənov** *daxil edilmişlər.*

AzərTac

ALLAH RƏHMƏT ELƏSİN!

Xəzər Universitəsinin rəhbərliyi və professor-müəllim heyəti universitənin Beynəlxalq tələbələr və mütəxəssislər şöbəsinin müdiri Aytən Şadlinskayaya qardaşı


Ceyhun Şadlinskinin

faciəvi vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

Allah rəhmət eləsin!

Uşaq dünyası

"Xəzər Xəbər" toplusunun
məktəblilər üçün
əlavəsi



AZƏRBAYCAN, YURDUM MƏNİM!

VƏTƏN SEVGİSİNİ HEÇ NƏ İLƏ ƏVƏZ ETMƏK OLMAZ!

Azərbaycan, sənsən mənim
Ülviyyətim, şan-şöhrətim.
Adın mənim öz adımdır,
Sənsiz mənim nə qiymətim?

Xalq şairi Bəxtiyar Vahabzadənin "Azərbaycan" şeirindən götürdüyümüz bu misralar ana yurdumuz Azərbaycanla bağlıdır. Biz bütün varlığımızla doğma Vətənimizə bağlıyıq, onun şöhrətini öz şöhrətimiz sanırıq, "vətən varsa, biz də varıq" deyirik.

Yurdumuzun geniş çölləri, bərəkətli düzləri, vüqarlı dağları var. Təbiət sanki ana yurdumuzdan heç bir gözəlliyini əsirgəməyib.

Ana yurdumuz Azərbaycan çətin dövrlərdən keçib. Babək, Cavanşir, Qaçaq Nəbi, Koroğlu məmləkətin hər daşını, hər qayasını bir qeyrət qalasına çevirmiş, yurdumuza uzanan xain əlləri kəsmişlər. Onların əməlləri bu günkü nəsillər üçün örnəkdir. 1990-cı ildə baş verən qanlı 20 Yanvar faciəsində, Dağlıq Qarabağ müharibəsində yurdun azadlığı, torpaqlarımızın bütövlüyü uğrunda canlarından keçən şəhidlər əcdadımızın qəhrəmanlıq ənənəsinin yaşadığını təsdiqlədi.

Ana yurdumuz Azərbaycanda N. Gəncəvi, M. Füzuli, M. Şəhriyar, H. Cavid, S. Vurğun və başqa dahi sənətkarlarımız misilsiz söz inciləri yaradaraq, yurdumuzun şöhrətini bütün dünyaya yayıblar.

Vətən sevgisi təmənnasızdır. Vətəni sevmək, Vətən naminə yaşamaq, ona xidmət göstərmək hər kəsin borcudur. Hamı Vətən üçün yaşayıb, öz əməyi ilə Vətənin şöhrətini artırmalıdır.

Vətənpərvərliyin ən uca zirvəsi şəhidlikdir. Vətənin müstəqilliyi, sərhədlərimizin toxunulmazlığı naminə Azərbaycanın yüzlərlə oğul və qızı canlarını fəda edərək şəhid olublar.

Tariximiz boyunca yağılar ana vətənimizə göz dikiblər. Torpaqlarımızı zəbt elməyə, sərvətlərimizi talamağa can atıblar. Ancaq onların niyyəti həmişə gözlərində qalıbdır.

Torpağa sevgi, düşmənə nifrət bizi döyüş meydanlarına çəkir, Vətənə əlimizdən gələn köməyi göstərməyə, şəhidlərimizin qisasını almağa səsləyir. Hər bir vətən oğlunu və qızını yumruq kimi birləşdirən bir istəkdir: "Vətən sevgisi".



Biz doğma Vətənimizin gözəllikləri, bol sərvəti, zəngin tarixi keçmişi ilə qürur hissi keçiririk. Vətən sevgisini heç nə ilə əvəz etmək olmaz!

El bilir ki, sən mənimsən,
Yurdum, yuvam məskənimsən.
Anam, doğma vətənimsən!
Ayrılarmı könül candan?
Azərbaycan, Azərbaycan!

Aytən QƏMBƏROVA,
"Dünya" məktəbinin
6a sinif şagirdi

KEÇMİŞİNİ BİLMƏYƏN ƏSL VƏTƏNDAŞ OLA BİLMƏZ

Vətən bizim göz açdığımız şəhərdən, kənddən, qəsəbədən – harada göz açmışıqsa, oradan başlayır. Həmin yer bizim üçün çox əzizdir, çox doğmadır, onu heç nəyə dəyişmək olmaz. Çünki onun qiyməti yoxdur!

Mənim Vətənim Azərbaycandır. Mənim elim, obam, yurdum, məskənim, çörəyim, suyum, bir sözlə, hər şeyim Azərbaycanda var və mən bundan səmərəli istifadə edirəm. Mən nə üçün xoşbəxt olmayım!? Bu, təkcə mənə yox, bütün Azərbaycan övladlarına aiddir. Axı, Allah bizə belə xoş, belə yaxşı şərait yaradıb. Biz nə üçün hər günümüzə şükür edib, öz Azərbaycanımızı qorumamalıyıq?

Azərbaycanımızın bol sərvəti, gözəl, səfalı, şəfalı yerləri vardır. Biz də həmin yerləri yad edir, onun min bir xəstəliyə dərman olan bitkilərini, agaclarda bol-bol bitən meyvələrini mənimsəyirik. Bununla yanaşı, həm də Azərbaycanın təbiətini zənginləşdirmək üçün xeyli əkin-biçin işləri aparıb, onu



abadlaşdırırıq. Azərbaycanın bol nefti, qazı, ağ qızılı bütün dünyada məşhurdur. Biz Azərbaycanımızla fəxr edirik!

Bütün xalqlarda olduğu kimi, Azərbaycanın da şanlı keçmişi, qanlı tarixi, yaddaşdan silinməyən məqamları olduqca çox olub. Bu cümləni işlətdikdə, yəqin ki, hamımızın yadına Qarabağ müharibəsi düşür. Bəli, bunu deməkdə məqsədim odur ki, Azərbaycanın keçmişini bilməyən, lakin Azərbaycanda yaşayan insan heç vaxt əsl Azərbaycan vətəndaşı ola bilməz.

Qarabağ müharibəsində igid oğul və qızlarımız sinələrini Vətən uğrunda sipər etdilər. Silahsız, əllərində qorunmaq üçün heç bir şey olmayan xalqımız ermənilərin qarşısına mərdliklə, igidliklə çıxdı. Onlar bir ox olub düşmənin gözünə batdılar. Bax, belə olub Azərbaycan qızları, bax belə olub Azərbaycan oğulları!

Bununla yanaşı, bizim babalarımız – Babəklər, Koroğlular, Cavad xanlar, Qaçaq Nəbilər, nənələrimiz – Sara Xatunlar, Tomrislər, Həcərlər, Nigarlar olub. Tomrisin sözünün üstündə durması, Həcərin igidliyi, Nigarın, Qaçaq Nəbinin, Cavad Xanın qəhrəmanlıqları bütün dünyanı mat qoydu.

Baxın, Azərbaycan budur! Budur onun keçmişi, budur onun tarixi! Qoy bizim Azərbaycan çiçəklənsin! Qoy bizim Azərbaycan ucalsın!

Azərbaycan, yurdum mənim! Sənin tarixindən, keçmişindən xəbərim var. Sənin uğrunda hər an, hər dəqiqə canımı qurban verməyə hazıram!

Ülviyyə QULİYEVA,
"Dünya" məktəbinin
VI b sinif şagirdi

MARAQ DÜNYASI

BİLİRSİNİZMİ?



- *Ən böyük molyuskun uzunluğu 1.09 m, eni 0.73 m, çəkisi isə 262.9 kq-a çatıb.*
- *Uçanbalıq ən çox 11 m hündürlükdə 90 saniyə ərzində 1.100 m uçub.*
- *Poznan heyvanxanasında 47 yaşlı Bonqo adlı begemot öldükdən sonra onun mədəsində bir poçtalyon çantası, 3 kq - lıq daş, 100 - dən çox Polşa metal pulu, tapança gülləsi, məftil parçası və bir ədəd qumbara çıxsa da, o, heç də mədə ağrısından ölməmişdi.*
- *Xarici görkəminə görə kərtənkələyə oxşayan, əslən məməlilər sinfinə aid panqolin adlı heyvanın dişləri ağzında yox, mədəsində yerləşir.*
- *Ən böyük ceyran sürüsü XIX əsrdə görünmüşdür. Sürünün uzunluğu 150 km, eni isə 24 km olmuşdur.*
- *Dünyanın ən ləng heyvanı ərincəkdir. O, yerdə dəqiqədə 2 m, ağacda dəqiqədə 3 m sürətlə yeriyir. Balasını xilas etməyə gedəndə isə sürəti dəqiqədə 4 m ola bilər.*
- *Bir toyuq yumurtası 183 m hündürlükdən yerə düşmüş və qırılmamışdır.*
- *Pinqvinlər suyun 265 m dərinləyinə baş vura bilərlər.*
- *Ən böyük kəpənəyin bir qanadının uzunluğu 28 sm olmuşdur.*
- *Ən uzun kök fikusa məxsusdur. Onun kökü yerin 120 m dərinliyinə kimi gedə bilir.*

Əlisəfa ƏLİZADƏ,
"Dünya" məktəbinin 7 c sinif şagirdi

AL TOXMAĞIM, VUR TOXMAĞIM

(nağıl)

Biri varmış, biri yoxmuş. Bilal adlı bir kişi varmış. Onun peşəsi odunçuluq imiş. O, hər gün meşəyə gedib qırdığı odunları belinə şələləyib gətirər, bazarda satar, aldığı pulu çörəyə, şor-pendirə verib ailəsini yarıac, yarıtox dolandırarmış. Həmişə olduğu kimi, yenə bir gün arvadı onu alaqaranlıqda yuxudan oyadıb dedi:

- Ay kişi, tez ol dur! Get odun gətir, sat! Uşaqlarçün çörək al!

Bilal yataqdan qalxdı. Baltasını, ipini götürüb meşəyə yollandı. Axtarıb qurumuş bir ağac tapdı. Elə onu kəsib doğramaq istəyirdi ki, qulağına bir şıqqıltı gəldi. O tərəf - bu tərəfə baxdı, kolluğun içində bir quşun tora düşdüyünü gördü. Quş dil açıb ona yalvardı:

- Mən səni tanıyıram, Bilal kişi! Bilirəm ki, xeyirxah adamsan. Məni bu tordan qurtar. Sənə yaxşılığım dəyər.

Bilal balta ilə torun iplərini kəsib, quşu azad etdi. Tordan qurtaran quş uçub ağacın budağına qondu və dedi:

- Bilal kişi, sən mənə yaxşılıq etdin. İndi onun əvəzini qaytarmaq istəyirəm. Bax, buradan sağ tərəfə getsən, qabağına bir tala çıxacaq. Talanın ortasında bir təpə var. Təpənin üstünə qalxarsan. Bir qazan görəcəksən. Onu götürüb apararsan. Hansı xörəyi istəsən, əlini salıb qazandan çıxararsan.

Quş bunu deyib uçub getdi. Bilal inanmasa da, quşun nişan verdiyi yerə getdi. Axtarıb talanı tapdı, təpənin üstünə çıxdı. Gördü ki, doğrudan da, burada bir qazan var. Bilal qazanı qoltuğuna vurub evə döndü. Arvad-uşağını başına topladı. Ortalığa bir məcməyi gətirdi. Əlini salıb qazandan qızardılmış toyuq, ət çıxartdı. Qazanın ağzını məcməyiyə sarı çevirdi. Məcməyi plovla doldu. Onlar doyunca yeyib-içdilər.

Bilal kişinin ailəsi daha yemək dərdi çəkmirdi. Nə vaxt lazım olurdu, istədiklərini qazandan çıxarıb yeyirdilər. Qazanın sorağı gedib xanın qulağına çatdı. O, fərraşlarını göndərdi ki, qazanı Bilaldan alıb gətirsinlər. Fərraşlar gəlib Bilala bir-iki şallaq da çəkib, qazanı götürüb apardılar.

Külfət yenə ac qaldı. Çarəsiz qalan Bilal kişi baltasını, ipini götürüb meşəyə odun qırmağa yollandı. O, meşəyə çatanda tordan azad etdiyi quşu gördü. Əhvalatı ona danışdı. Quş dedi:

- Qəm eləmə. Buradan sol tərəfə gedərsən, qabağına bir çay çıxacaq. Çayın qırağında görəcəksən ki, bir keçi otlayır. Onu tutub apararsan. «Keçi-keçi, peçi-peçi» deyincə, ağzından qızıl töküləcək.

Bilal quşa baş əyib getdi. Gəlib gördü ki, çayın qırağında, doğrudan da, bir keçi otlayır. Keçiyə yaxınlaşıb elə «keçi-keçi, peçi-peçi» demişdi ki, bir də nə olsa yaxşıdı?! Başladı keçinin ağzından qızıl tökülməyə. Bilal tez qızılları cibinə doldurdu, keçini də götürüb gəldi evinə. Bundan sonra Bilalın dolanacağı lap yaxşılaşdı. Uşaqları üçün təzə pal-paltar aldı.

Amma onların şadlığı uzun sürmədi. Keçinin sorağı da xana çatdı. O, yenə fərraşlarını göndərib keçini də Bilalın əlindən aldı.

Bilal bu səfər də baltasını, ipini götürüb ağac doğramağa hazırlaşırdı ki, quşun səsini eşitdi. Başını qaldırıb baxanda quşu gördü. Başına gələnləri ona danışdı. Quş dedi:

- Bundan ötrü ürəyini sıxma. Bax, o ağacdan bir toxmaq asılıb. Götür onu. Kim səni incitsə, onu at ortaya, «Al toxmağm, vur toxmağm» de. Daha sənin işin yoxdur. Saxlamaq istəyəndə də «Dur toxmağım» söylə.

Bilal ağacdan asılmış toxmağı götürüb düz xanın sarayına gəldi. Baxdı ki, keçi həyətdə ağaca bağlanıb. İçəri keçəndə gördü ki, xan taxtda əyləşib vəzir-vəkillə söhbət eləyir. Fərraşların da hamısı burdadı. Qazan da taxtın arxasındakı taxçaya qoyulub. Bilal toxmağı yerə atıb dedi:

- Al toxmağım, vur toxmağım!

Söz onun ağzından qurtarınca toxmaq başladı, nə başladı. Xanı, vəzir-vəkili, fərraşları şil-küt eləyib yerə sərdi. Tərpənməyə heç birinin taqəti olmadı. Bilal «Dur, toxmağım» deyincə, toxmaq dayandı. O, qazanı, keçini, toxmağı da götürüb evinə gəldi. Toxmağın qorxusundan daha heç kim Bilala bir söz deyə bilmədi. Onlar xoşbəxt yaşamağa başladılar.

Bəzəyəni **Bəhlul ABDULLA**

KİTABXANAMIZIN YENİ KİTABLARI



Azərbaycanda qadınlar və kişilər 2009 = Women and men in Azerbaijan 2009. – Bakı: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, 2009. – 315 s.

Hacıbəyli Ü. Nəşrlərdə kənara qoyulmuş mətbu əsərləri (1904-19120). – Bakı: Elm, 2009. – 300 s. – ISBN 978-9952-453-33-1



Musayev H. Beynəlxalq terrorçuluğa qarşı mübarizədə xüsusi xidmət orqanlarının fəaliyyətinin prinsip və xüsusiyyətləri. – Bakı: Çaşıoğlu, 2009. – 272 s. – ISBN 9952- 443-06-6





Bobb, D. Delhi then & now. – New Delhi: Roli Books, 2007. – 193 p. – ISBN 978-81-7436-469-2



Lewis, R. When cultures collide: leading across cultures. – 3rd ed. – New York: W.W. Norton, 2005. – 402 p.

Балаев А. Мамед Эмин Расулзаде (1884-1955). – Москва: Флинта, 2009. – 288 с. – ISBN 978-5-9765-0785-2





Марданов М.Дж. Исследование оптимальных процессов с запаздываниями при наличии ограничений. – Баку: Элм, 2009. – 192 с. – ISBN 978-9952-453-48-5

Расулзаде М.Э. Сборник произведений и писем / сост., предисл и примеч. С. Исхаков. – Москва: Флинта, 2010. – 368 с. – ISBN 978-5-9765-0814-9



Hazırlayanı: **Lyudmila Sotova**

OXUCULARIN NƏZƏRİNƏ!

"XƏZƏR XƏBƏR" JURNALINA 2010-cu İL ÜÇÜN ABUNƏ ELANI

Əziz oxucular!

"Xəzər Xəbər" jurnalı yeni ildə sizin görüşünüzə yeni həcmdə və yeni görkəmdə gələcək. Jurnalın dövriliyi də dəyişəcək.

"Xəzər Xəbər" jurnalı ayda bir dəfə (avqust ayından başqa) 80 səhifə həcmində, qismən rəngli çıxacaq.

"Xəzər Xəbər" jurnalında siz yenə Azərbaycan, türk, rus və ingilis dillərində maraqlı xəbərlər, təhsil yenilikləri və tələbə həyatına, mədəniyyət, turizm və idmana aid yazılar, orijinal bədii əsərlər oxuya biləcəksiniz.

"Xəzər Xəbər" jurnalına 2010-cu ilin fevralından aşağıdakı ünvanlarda abunə yazılmaq (11 aylıq abunə haqqı 20 manatdır) olar:

- *"Azərpoçt" MMC-nin Bakı Mərkəzi poçtu (Üzeyir Hacıbəyov küçəsi, 36), tel.: 493-33-66*
- *1 saylı poçt (İstiqlaliyyət küçəsi, 35, İçərişəhər metrosu, İqtisadiyyat Universiteti ilə üzbəüz), Tel.: 492-58-40*
- *"Qasid" Açıq Səhmdar Cəmiyyəti (5-ci mikrorayon, Cavad xan küçəsi, 21, Memar Əcəmi metrosunun yanı, tel.: 493-14-06; 493-16-43*

2010-cu ilin yanvar ayından etibarən "Xəzər Xəbər" jurnalını pərakəndə satışda "Metro-Servis" MMC-nin Bakı metropoliteni stansiyalarındakı köşklərindən ala bilərsiniz.

"Xəzər Xəbər"ə abunə yazılın!
"Xəzər Xəbər"i oxuyun!
"Xəzər Xəbər"ə yazın!

KHAZAR VIEW

XƏZƏR

XƏBƏR